# TÖVRATDA QURANA UYĞUN SEVGİ SÖZLƏRİ

ADNAN OKTAR

(HARUN YƏHYA)

# İÇİNDƏKİLƏR

İÇİNDƏKİLƏR .......... 2

OXUCUYA .......... 4

YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA .......... 5

GİRİŞ .......... 7

ALLAH İMAN GƏTİRƏNLƏRİ SEVƏR VƏ ONLARA RƏHM EDƏR .......... 9

İMAN GƏTİRƏNLƏR ALLAHI SEVƏR .......... 12

İMAN GƏTİRƏNLƏR ALLAHA QƏLBDƏN BAĞLI VƏ YAXINDIR .......... 14

İMAN GƏTİRƏNLƏR ALLAHI SEVİNCLƏ XATIRLAYIB UCALDAR .......... 15

İMAN GƏTİRƏNLƏR ALLAHIN ƏMİRLƏRİNƏ SEVƏ-SEVƏ VƏ ZÖVQ ALARAQ İTAƏT EDƏR .......... 16

İMAN GƏTİRƏNLƏR ALLAH SEVGİSİNDƏN VƏ İMANDAN QAYNAQLANARAQ XOŞBƏXTDİR .......... 18

İMAN GƏTİRƏNLƏR BİR-BİRİLƏRİNİ SEVƏR VƏ BİR-BİRİLƏRİNİN VƏLİSİDİR .......... 19

ALLAH ONA GÜVƏNƏNLƏRİN VƏLİSİDİR .......... 21

ALLAH SEVDİYİ QULLARINI GÜNAHLARDAN TƏMİZLƏYƏR .......... 23

YAXŞILIQ EDƏNLƏR ALLAHIN SEVGİSİNİ QAZANAR .......... 24

ALLAHA DƏRİN SEVGİ İLƏ BAĞLI OLANLAR, SADİQ VƏ VƏFALIDIR .......... 25

ALLAH İMAN GƏTİRƏNLƏRƏ KÖMƏK EDƏR .......... 27

ALLAH SEVDİYİ QULLARINA MÜVƏFFƏQİYYƏT QAZANDIRAR .......... 29

ALLAH ÖZ RIZASINI İSTƏYƏNLƏRİ XOŞBƏXTLİK İÇİNDƏ YAŞADAR .......... 30

İMAN GƏTİRƏNLƏRİN HƏYATINDA İMANIN, SEVGİNİN VƏ GÖZƏL ƏXLAQIN BƏRƏKƏTİ VARDIR .......... 32

ALLAH ONDAN QORXANLARI SEVƏR .......... 33

ALLAH DÜRÜST OLANLARI SEVƏR .......... 34

ALLAH TƏVAZÖKAR OLANLARI SEVƏR .......... 35

ALLAH MƏRHƏMƏTLƏ DAVRANANLARI SEVƏR .................................... 36

ALLAH DOĞRU VƏ ƏDALƏTLİ OLANLARI SEVƏR .................................... 38

İMAN GƏTİRƏNLƏR, SEVGİSİ SONSUZ OLAN ALLAHA ŞÜKR EDƏR .......... 40

İMAN GƏTİRƏNLƏR ALLAHIN SEVGİSİ ÜÇÜN DUA EDƏR ........................ 41

ALLAHIN ƏMRLƏRİ İMAN GƏTİRƏNLƏRİN QƏLBİNDƏDİR VƏ ÜZƏRİNDƏ DƏRİN DÜŞÜNƏRLƏR ........................................................ 42

İMAN GƏTİRƏNLƏR ALLAHA OLAN SEVGİLƏRİ SƏBƏBİ İLƏ HEÇ BİR HADİSƏ QARŞISINDA SARSILMAZ VƏ ÜZÜLMƏZLƏR .............................. 43

İMAN GƏTİRƏNLƏR HƏYATLARI BOYU QƏZƏBLƏRİNƏ HAKİM OLAR VƏ SEVGİ YOLUNDAN AYRILMAZ ................................................ 44

SEVGİSİZLİK ÇƏKİŞMƏ GƏTİRƏR, SEVGİ İSƏ BAĞIŞLAYANDIR................. 45

SÜLHƏ ÇAĞIRANLAR SEVGİ İÇİNDƏ YAŞAYAR ....................................... 46

ALLAHI SEVƏNLƏR DÜNYADA XƏLİFƏLƏR OLACAQ ............................... 47

CƏNAB ADNAN OKTAR DEYİR Kİ ......................................................... 48

NƏTİCƏ ............................................................................................. 49

TƏKAMÜL YALANI .............................................................................. 51

ŞƏKİL ALTINDAKI YAZILAR ................................................................. 68

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr

də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Kiçik bir uşaq irq ayrı-seçkiliyini, nifrəti, qəzəbi; dininə, mədəniyyətinə, millətinə görə insanları siniflərə bölməyi, insanlara zülm etmənin məntiqini bilməz; çünki hər uşaq sevgi fitrətiylə doğular. Nifrət, sonradan öyrənilən bəladır; şeytanın tələsidir. Şeytan, insanın nəfsindəki zəif nöqtələri istifadə edərək ona həyatının hər mərhələsində az və ya çox nifrət etməyi öyrədər. Başlanğıcda yalnız sevməyi və fədakarlıq etməyi bilən günahsız uşaq, zamanla ona deyilən nifrət hissi ilə sevgisizləşər, ruhsuzlaşar, yaşama sevincini itirmiş varlığa çevrilə bilər. Çox acıdır ki, hal-hazırda dünya, böyük ölçüdə sevgisiz insanların hakimiyyəti altındadır.

Bunun bir səbəbi vardır: Bu dünya həyatı, bir imtahan sahəsi, yaxşılarla pislərin elmi mənada mübarizə yeridir. Elə bu səbəblə Allah, tarix boyunca peyğəmbərlər göndərmiş, bunun qarşısında da həmişə pisliyi yaymağa çalışan dəccal olmuşdur. İçində olduğumuz Axırzaman isə xüsusi zamandır. Dünyanın son xilaskarı olan Hz. Mehdi (ə.s)-ın (Kral Məsih-Moşiyah) zühur vaxtıdır. Bu dövr, dəccalın hiyləgər mübarizəsinin artdığı, Mehdi tərəfdarlarını öz ağlına görə məğlub etmək üçün səy göstərdiyi dövrdür. Bunu reallaşdıra bilmək üçün dəccal, insanları ən əhəmiyyətli həyat damarlarından vurmağa, onları sevgidən uzaqlaşdırmağa çalışır.

Dəccal, insanları sevgisiz, ruhsuz və nifrət dolu hala gətirmək üçün yola çıxmış; səmimi iman gətirənlər istisna olmaqla da bu sözünü yerinə yetirmişdir. Lakin artıq son söz, Hz. Mehdi (ə.s)-dır.

Dəccal və onun sistemi, mütləq məğlub olacaqdır. Axırzaman, dəccalın bütün hiylələrinin pozulacağı və dəccaliyyətin tamamilə yox ediləcəyi zamandır. Dəccalın meydana gətirdiyi qorxunc sevgisiz sistem sona çatacaq və Allahın istədiyi və bəyəndiyi sevgi və məhəbbət mühiti dünyaya yayılacaqdır. Uca Rəbbimiz bunu, Hz. Mehdi (ə.s)-ı vəsilə edərək etmək istəməkdədir. Elə bu səbəblə Hz. Mehdi (ə.s) tərəfdarı olan bütün sevgi insanları, buna mühit hazırlamaq üçün hər zamankindən daha çox səy göstərməlidirlər.

Sevginin özü, bizlərə Müqəddəs Kitablarla tanıdılmışdır. Quranda, Tövratda və İncildə, kainatın sevgi təməli üzərinə yaradıldığını həmişə görərik. Sevgi, Allahdan bir nurdur. Qəlblərin, bədənin, ruhun ən böyük ehtiyacıdır. Allahın yaratdığı gözəllikləri görə bilmənin açarıdır. Allahı anlayıb təqdir edə bilmənin yoludur. Dünyadakı imtahanın sirri, sevgini qavramaqla aydın ola bilər. Dəccali sistemi məğlub edə bilməyin yolu isə, ancaq və ancaq, sevgi insanlarının ittifaqıyla mümkündür.

Elə bu səbəblə Müqəddəs Kitablarda Rəbbimizin sevgi çağırışına diqqət vermək lazımdır. Uca Rəbbimiz, Quranı "özündən əvvəlki kitabları təsdiqləyən olaraq göndərdiyini" ifadə etməkdədir. Bu həqiqətin vurğulandığı ayələrdən biri belədir:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi (Ali İmran surəsi, 3)**

Quranda sevgi təriflədiyi kimi, Quranın doğruladığı əvvəlki kitablar olan Tövrat və İncilin qorunmuş hissələrində də sevgi təriflənir və təşviq olunur.

Oxuyacağınız bu kitabda Tövratın dəyişmədən qalmış hissələrində yer alan, Quran ilə eyni olan müxtəlif Tövrat fəsillərindən faydalanma imkanı tapacaqsınız. Bilindiyi kimi Tövratın bəzi hissələri, heç dəyişmədən günümüzə qədər gəlmişdir və Allahın sözü olması səbəbiylə Quran ilə olduqca oxşar hissələr ehtiva etməkdədir. Bu səbəbdən oxuyacağınız bu hissələr, ehtiva etdiyi hikmət və zənginlikdən də aydın olacağı kimi, Uca Rəbbimizin sözüdür.

Vicdanını istifadə edən yaxşı insanlar, bu sözlərin göstərdiyi mənanı düşünməli və sevgini yaşamaq və həmişə ayaqda tuta bilmək üçün yaxşılarla daima ittifaq içində olmalıdırlar. Dəccalın oyununu pozmalı, dəccal nifrəti körüklədikcə, sevginin tərəfdarı olaraq ön plana çıxmalıdırlar. Allahı sevmənin gözəlliyini qavramalı və səhv inanc sistemlərini elmi olaraq yox edərək, Allah aşiqi birliklər meydana gətirməlidirlər. Unudulmamalıdır ki, həqiqi Allah sevgisini yaşayan az sayda insan belə, dünyanı dəyişdirməyə kifayətdir. Şübhəsiz bütün güc, Uca Allaha aiddir.

**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

**ADNAN OKTAR**: Allah Quranda, İncil və Tövrat tamamilə etibarsızdır demir. Quran, İncil və Tövrat mövzusunda hakimlik edir. İncil və Tövratın Qurana uyğun bölümleri etibarlıdır. Tövrat Mehdini minlərlə il əvvəl çox ətraflı izah etmişdir. Müsəlmanların İncil və Tövratı da oxuması, onların haqqında məlumat sahibi olması lazımdır. İncil və Tövratın Qurana uyğun bölümləri etibarlıdır. (Adnan Oktarın 12 fevral 2017-ci il tarixli A9 TV proqramından)

Tövrat və İncilin təhrif olmamış hökmləri etibarlıdır və bir çox Quran ayəsində Tövrat və İncilə istinad vardır. (Adnan Oktarın 17 fevral 2017-ci il tarixli A9 TV proqramından)

# ALLAH İMAN GƏTİRƏNLƏRİ SEVƏR VƏ ONLARA RƏHM EDƏR

Amma **Məni sevib əmrlərimə əməl edənlərin isə minlərlə nəslinə məhəbbət göstərərəm.** (Çıxış 20:6; Qanunun Təkrarı,5:10)

... "Rəbb Mənəm, rəhmli və lütfkar Rəbb Allaham. **Mən hədsiz səbirli, bol məhəbbətli və sədaqətliyəm, minlərlə nəslinə məhəbbətimi göstərərəm, cəzanı, qanunsuzluğu və günahı bağışlayaram...**" ( Çıxış, 34: 6-7)

Kərənay çalanlar və ilahiçilər bir səslə Rəbbə həmd və şükür etməklə səslərini birgə ucaltdılar. Kərənayların, sinclərin, musiqi alətlərinin səsi yüksələndə onlar dedi: **"Rəbbə həmd edin, çünki yaxşıdır, çünki məhəbbəti əbədidir"** (İkinci Salnamələr, 5:13)

"**Rəbbin məhəbbətinə görə məhv olmadıq, Çünki mərhəməti tükənməzdir. Hər səhər bunlar təzələnir**, Sənin sədaqətin böyükdür" (Mərsiyələr, 3:22-23)

Onlar Rəbbə həmd və şükür edib növbə ilə Onu tərənnüm edərək belə deyirdilər: **"Rəbb yaxşıdır, çünki İsrailin üzərində məhəbbəti əbədidir".** (Ezra, 3:11)

**Qəm-qüssə versə belə, Bol məhəbbətinə görə rəhmə gələr.** (Mərsiyələr, 3:32)

Ya Rəbb, **salehə xeyir-dua verirsən, Lütfünlə sipər kimi onları hifz edirsən** (Zəbur, 5:12)

Ya Rəbb, gəl, mənə kömək et, **Məhəbbətin naminə məni xilas et!** (Zəbur, 6:4)

Rəbb uzaqdan mənə görünüb dedi: "Səni əbədi bir məhəbbətlə sevdim, Buna görə də sevgi ilə Səni Özümə tərəf çəkdim." (Yeremya, 31:3)

**Sənin məhəbbətinə güvənirəm**, Qurtuluşunla qəlbim şadlanacaq. Rəbbə ilahi nəğməmi oxuyacağam, Çünki mənə comərdlik etdi. (Zəbur, 13:5-6)

Qoy Rəbbə alqış olsun! Çünki mühasirəyə düşən şəhərdə **Məhəbbətini xariqələrlə mənə göstərdi!...** Rəbbi sevin, siz ey bütün möminlər! Rəbb həmişə Ona sadiq qalanı qoruyur, Təkəbbürlü insana isə layiq olduğunu verir (Zəbur, 31:21-23)

Rəbb salehliyi və ədaləti sevir, Yer üzü Onun məhəbbəti ilə dolur. (Zəbur, 33:)

Ya Rəbb, məhəbbətin göylərdədir, Sədaqətin asimanı bürüyür. Dağlar kimi salehliyin uludur, Dərya kimi ədalətin dərindir. Ya Rəbb, həm insanı, həm heyvanı qoruyursan. Ey Allah, məhəbbətin nə qədər qiymətlidir! Bəşər övladları Sənin qanadlarının kölgəsinə sığınır. Evinin bolluğu ilə onları doydurursan, Sənin xoşhal edən axar çayından onları içirirsən. Çünki həyat mənbəyi Səndədir, Biz Sənin nurunla görə bilirik. (Zəbur, 36:5-9)

**Məhəbbətin böyükdür, göylərə çatır**, Sədaqətin buludlara dəyir. Ey Allah, göylər üzərində ucal! Ehtişamın bütün yer üzərində olsun! (Zəbur, 57:10-11)

Alqış olsun Allaha! Duamı rədd etmədi, **Məndən məhəbbətini əsirgəmədi!** (Zəbur, 66:20)

**Çünki Sən, ey Xudavənd, xeyirxahsan, bağışlayan Sənsən, Səni səsləyənlərin hamısı üçün məhəbbətin boldur.** Çünki mənə olan məhəbbətin böyükdür, Canımı ölülər diyarına enməkdən qurtardın. (Zəbur, 86:5, 13)

Ey Xudavənd, Sən rəhmli, lütfkar Allahsan, Hədsiz səbirlisən, məhəbbətin və sədaqətin boldur. (Zəbur, 86:15)

Ey bütün millətlər, Rəbbə həmd edin! Ey bütün ümmətlər, Onu mədh edin! **Bizə olan məhəbbəti böyükdür**, Rəbbin sədaqəti əbədidir! Rəbbə həmd edin! (Zəbur, 117:1-2)

Mən "ayağım büdrəyir" deyən zaman, **Ya Rəbb, mənə məhəbbətinlə dayaqsan.** (Zəbur, 94:18)

Rəbb rəhmli və lütfkardır, Hədsiz səbirli və bol məhəbbətlidir. Çünki göylər yerdən nə qədər ucadırsa, Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür... Ata övladlarına rəhm etdiyi kimi Rəbb də Ondan qorxanlara elə rəhm edir... Rəbbin isə Ondan qorxanlara olan məhəbbəti, Onların övladlarına olan salehliyi Əzəldən var, bu əbədi qalacaq. Onun əhdinə vəfa edənlərə bunları göstərir, Qayda-qanunlarını yerinə yetirənləri unutmur. (Zəbur, 103:8, 11, 17-18)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki **məhəbbəti əbədidir**!... **Rəbbə şükür etsinlər** məhəbbətinə görə, Bəşər övladlarına göstərdiyi xariqələrinə görə!... Kimin ağlı varsa, qoy buna fikir versin, Qoy **Rəbbin məhəbbətini dərk etsin**! (Zəbur, 107:1, 21, 43)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir! (Zəbur, 118:29)

Ey İsrail, Rəbbə ümidini bağla! **Çünki Rəbdə məhəbbət var, Onda bol-bol qurtuluş var.** (Zəbur, 130:7)

Məni sağ əlinlə qurtarırsan. Rəbb mənə verdiyi vədə əməl edir. **Ya Rəbb, məhəbbətin əbədidir.** Öz əlinin işini tərk etmə! (Zəbur, 138:7-8)

Paltarlarınızı deyil, ürəyinizi yırtın, Allahınız Rəbbə tərəf qayıdın. Çünki O, lütfkar və rəhmlidir, Hədsiz səbirlidir, **bol məhəbbətlidir**, Bəla göndərməz, rəhm edər. (Yoel, 2:13)

**Məni sevənləri sevirəm**, Məni səylə axtaran tapır. (Süleymanın Məsəlləri, 8:17)

Ya Rəbb, əzəldən bəri var olan Mərhəmətini, **məhəbbətini yada sal. ...Rəbb yolunda onun üçün xeyirxahlıq və sədaqət var.** (Zəbur, 25:6, 10)

Qoy Rəbbə alqış olsun! Çünki mühasirəyə düşən şəhərdə Məhəbbətini xariqələrlə mənə göstərdi! (Zəbur, 31:21)

Amma mən Allahın evində Yaşıl zeytun ağacına bənzərəm, **Daima, əbədilik Allahın məhəbbətinə güvənirəm.** Sənin gördüyün işlərə görə daim şükür edirəm, Möminlərin qarşısında gözəl isminə ümid bağlayıram! (Zəbur, 52:8-9)

Allah-Taalanı çağırıram, Mənim üçün hər şeyi verən Allahı çağırıram. 3Göydən mənə qurtuluş göndərəcək, Başımı yemək istəyəni rüsvay edəcək. Sela Allah Öz **məhəbbətini və sədaqətini göndərəcək.** (Zəbur, 57:2-3)

Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam, Sənin sədaqətini dilim hər nəslə deyəcək. Deyirəm ki, məhəbbətin əbədiyaşardır, Sədaqətin göylər qədər sarsılmazdır. (Zəbur, 89:1-2)

**Səhər-səhər bizə doyunca məhəbbət göstər**, Qoy ömrümüz boyu sevinib fərəhlənək. (Zəbur, 90:14)

Dərgahına şükürlərlə, Həyətlərinə həmdlərlə gəlin. Ona şükür edin, İsminə alqış söyləyin. **Rəbb nə yaxşıdır, məhəbbəti əbədidir**, Sədaqəti nəsillərdən-nəslə çatır! (Zəbur, 100:4-5)

Məhəbbətini, həqiqətini tərənnüm edəcəyəm, **Ya Rəbb, Sənə ilahi söyləyəcəyəm!**. (Zəbur, 101:1)

Bütün İsrail övladları odun düşdüyünü və məbədin üzərində olan Rəbbin izzətini görəndə daş döşəmənin üstündə üzüstə yerə çöküb **"Rəbbə şükür olsun, çünki O yaxşıdır, Onun məhəbbəti əbədidir"** deyərək səcdə etdilər. (İkinci Salnamələr, 7:3)

Kahinlər öz vəzifələrinə görə dayandı, Levililər isə Rəbbin musiqi alətləri ilə durdu. Padşah Davud bunları düzəltmişdi ki, o, **"Rəbbə şükür olsun, çünki məhəbbəti əbədidir"** oxuyaraq həmd edəndə Levililər onlarda çalsın. Kahinlər onların qarşısında kərənaylar çalırdı və bütün İsraillilər ayaq üstə dayanmışdı. (İkinci Salnamələr, 7:6)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir! Qoy İsraillilər belə desin: **"Çünki məhəbbəti əbədidir!"** Harun nəsli belə desin: **"Çünki məhəbbəti əbədidir!"** Qoy Rəbdən qorxanlar belə söyləsin: **"Çünki məhəbbəti əbədidir!"...** Allahım Sənsən, Sənə şükür edəcəyəm! Allahımsan, Səni yüksəldəcəyəm! (Zəbur, 118:1-4, 28)

...Çünki O, lütfkar və rəhmlidir, Hədsiz **səbirlidir, bol məhəbbətlidir, Bəla göndərməz, rəhm edər.** (Yoel, 2:13)

Rəbb Ona güvənənlərə, Onu axtaran könüllərə xeyirxahdır. (Mərsiyələr, 3:25)

**ADNAN OKTAR:** "Ey doğru insanlar, Rəbbə sevinclə səslənin." Necə? Sevinclə. Niyə? İmanından ötəri sevinclə qışqırır. Kim sevilir? Allah sevilir da onun üçün. "Dürüst olanlara onu tərifləmək yaraşır." Əgər dürüstsənsə Allahı tərifləyin, böyüklüyünü söyləyin, tənzih edin, münəzzəh olduğunu söyləyin, təsbeh edin. Yəni subhanAllah, subhanAllah subhanAllah. Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər, böyüksən Ya Rəbbi, Allahu Əkbər.

"Baxın mövhumatçılara cavab; "Lirə çalaraq Rəbbə şükür edin. On telli cəng ilə onu ilahələrlə tərifləyin." Sazlarla. Bax, ələvilər onu kəşf etmiş halal olsun. "Doyulurmu, doyulurmu, canana qıyılırmı?" Şahanə. "On telli cəng ilə onu ilahələrlə tərifləyin." Halal olsun ələvi qardaşlarımıza. Bax buradakı beş min illik hökmü ləğv etməyiblər. Saz ilə Allahı tərifləyirlər, çox gözəl. Peyğəmbərimiz (s.ə.v)-i tərifləyirlər. "İlahələrlə tərifləyin." Kimi? Allahı. "Ona yeni nəğmə söyləyin." Davamlı eyni sözləri söyləməyin bax "yeni nəğmə." Düşünüb necə belə insan sevgililərinə nəğmə söyləyirlər, davamlı nəğmə meydana gəlir, Allaha da çox gözəl yeni-yeni nəğmələr hazırlayın deyir. Məsələn biri bitsin biri başlasın, biri bitsin biri başlasın.

Allahı tərifləyən həddindən çox nəğmə hazırlayın. Nəğməni hazırlayan kimdir? Allah. "Sevinc qışqırıqlarıyla sazınızı danışdırın." Ağlasın saz deyir, qanun inləsin. Nə ilə? Sevinc qışqırıqlarıyla təkbir gətirəcəksən. Allah deyə bağıracaqsan, eşqə gələcəksən. Sevinc qışqırığı dediyi, "Eşqə gəlin" deyir. Aydın oldu mu? Məsələn Hz. Davud (ə.s) eşqə gəlib oynamağa başlayır, Allah eşqiylə. "Onu qınamaq istədilər" deyir, Hz. Davut (ə.s) heç vecinə almır. Nə ilə? Allah eşqiylə oynayır, "coşğuyla oynayırdı" deyir, maşaAllah, "ən qabaqda idi" deyir, inşaAllah. *(30 oktyabr 2014, A9 TV)*

# İMAN GƏTİRƏNLƏR ALLAHI SEVƏR

Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə sev. (Qanunun Təkrarı, 6:5)

Bu gün sizə **Allahınız Rəbbi sevməyi**, Onun qoyduğu yollarla getməyi, əmrlərinə, qaydalarına, hökmlərinə riayət etməyi əmr edirəm. Belə etsəniz, ...Allahınız Rəbb tərəfindən xeyir-dua alacaqsınız. (Qanunun Təkrarı, 30:16)

Bilin ki, Allahınız Rəbb əsl Allahdır. O, vəfalı Allahdır. Əhdinə sadiq qalıb **Onu sevənlərin,** əmrlərini yerinə yetirənlərin minlərlə nəslinə məhəbbətini göstərər. (Qanunun Təkrarı, 7:9)

Rəbb deyir: "Əgər bu gün sizə buyurduğum əmrlərə yaxşı qulaq assanız, **Allahınız Rəbbi sevib** bütün qəlbinizlə, bütün varlığınızla ona sitayiş etsəniz, o zaman Mən torpağınıza yağışı - ilk yağışla son yağışı vaxtlı-vaxtında verəcəyəm...(Qanunun Təkrarı, 11:13-14)

Ey göylərin Allahı Rəbb! **Səni sevənlərlə**, əmrlərinə əməl edənlərlə Öz əhdinə sadiq qalıb lütf göstərirsən. Ey böyük və zəhmli Allah! (Nehemya, 1:5)

...Allahınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla sevəsiniz və yaşayasınız. (Qanunun Təkrarı, 30:6)

**Allahınız Rəbbi sevin...** (Qanunun Təkrarı, 30:20)

...Allahınız Rəbb sizi sınayır, görmək istəyir, siz Allahınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla sevirsinizmi? (Qanunun Təkrarı, 13:3)

**Rəbbi sevin**, siz ey bütün möminlər! Rəbb həmişə Ona sadiq qalanı qoruyur...(Zəbur, 31:23)

**Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir**, Qəlbim Rəbbin həyətinin həsrətindədir, Könlüm, cismim var olan Allaha mədh oxuyur. (Zəbur, 84, 1-2)

...Allahın Rəbb səndən nə istəyir? Yalnız bunu istəyir: Ondan qorx, tamamilə Onun yolunu tut, **Onu sev**, bütün qəlbinlə və bütün varlığınla Allahın Rəbbə sitayiş et. Bu gün xoş güzəranın üçün sənə buyurduğum Rəbbin əmr və qaydalarına riayət et. (Qanunun Təkrarı, 10:12-13)

**Allahınız Rəbbi sevin.** Həmişə Onun buyruq, qayda, hökm və əmrlərinə əməl edin. (Qanunun Təkrarı, 11:1)

Əməl etməniz üçün sizə buyurduğum bütün bu əmrləri diqqətlə yerinə yetirsəniz, **Allahınız Rəbbi sevib** Onun yolları ilə getsəniz və yalnız Ona bağlı qalsanız... (Qanunun Təkrarı, 11:22)

**Allahınız Rəbbi sevmək** və daim Onun yolları ilə getmək üçün bu gün sizə buyurduğum bütün bu əmrlərə diqqətlə əməl etdiyiniz üçün Allahınız Rəbb atalarınıza and etdiyi kimi sizin sərhədinizi genişləndirərsə və atalarınıza verməyi vəd etdiyi bütün torpaqları sizə verərsə, o zaman özünüz üçün bu üç şəhərdən əlavə üç şəhər də seçin. (Qanunun Təkrarı, 19:8-9)

**Allahınız Rəbbi sevin**, sözü qulağınızda qalsın və Ona bağlanın. Çünki sizin həyatınız Odur. Belə etsəniz, Rəbbin ata-babalarınız İbrahimə, İshaqa və Yaquba verməyi vəd etdiyi torpaqda sizi uzun ömürlü edəcək. (Qanunun Təkrarı, 30:20)

Ancaq Rəbbin qulu Musanın sizə buyurduğu əmrə və qanuna əməl etməyə səylə çalışın. **Allahınız Rəbbi sevin**, tamamilə Allahın göstərdiyi yolla gedin və əmrlərinə əməl edin, Ona bağlanın, bütün qəlbinizlə, bütün varlığınızla yalnız Ona qulluq edin. (Yeşua, 22:5)

...Allahınız Rəbbi sevməyə cəhd edin. (Yeşua, 23:11)

Yeşua dedi: "Elə isə indi aranızda olan yad allahları atın, **ürəyinizi İsrailin Allahı Rəbbə** meyl etdirin". (Yeşua, 24:23)

Rəbbə dedim: "Mənim Xudavəndim Sənsən. **Səndən başqa mənim xoşbəxtliyim yoxdur"**. (Zəbur, 16:2)

Məhəbbətin gözümün önündə durur, Sənin sədaqətinlə gəzirəm. Ya Rəbb, məskənin olan evi, Calalının sakin olduğu yeri sevirəm. (Zəbur, 26:3, 8)

Maral axar sulara həsrət qalan kimi, Ey Allah, könlüm Sənin həsrətini çəkir! Ey var olan Allah, mənim qəlbim Sənin üçün susayıb. Ay Allah, nə vaxt gəlib hüzurunda görünüm?... Mənim qəlbim, niyə qırılmısan? Axı niyə bu köksümdə təlaşlanırsan? Ümidini yenə Allaha bağla, Qoy Allahıma – məni qurtarana şükür edim. Rəbb mənə gündüz məhəbbət göstərir, Gecə isə həyatımın Allahına Etdiyim dua və ilahi dilimdən düşmür Mənim qəlbim, niyə qırılmısan? Axı niyə bu köksümdə təlaşlanırsan? Ümidini yenə Allaha bağla, Qoy Allahıma – məni qurtarana şükür edim. (Zəbur, 42:1-2, 5, 8, 11)

Mənim dilim Səni tərənnüm edir, Məhəbbətin bu həyatdan gözəldir. Bütün ömrüm boyu Sənə alqış edəcəyəm, Əllərimi qaldırıb adınla Səni səsləyəcəyəm. Sanki yağlı yeməklə canım tox olacaq, Dilim Səni mədh edəcək, ağzım həmd oxuyacaq. Yatanda belə, Səni xatırlayıram, Gecə növbələrində Səni düşünürəm. Sən mənə kömək oldun, Qanadlarının kölgəsində Sənə mədh oxuyacağam. Könlüm Sənə bağlanır, Sağ əlin məni möhkəm tutur. (Zəbur, 63:3-8)

**Rəbbi sevirəm**, Çünki O, yalvarışımı eşidir. Səsimə qulaq asdığı üçün Nə qədər varam, Onu çağıracağam. (Zəbur, 116: 1-2)

Fəqət mən bol məhəbbətin naminə evinə gələcəyəm, Üz tutub müqəddəs məbədinə qorxu ilə səcdə edəcəyəm. (Zəbur, 5:7)

..."Ayağım büdrəyir" deyən zaman, Ya Rəbb, mənə məhəbbətinlə dayaqsan. Mən daxilən çox narahat olarkən Təsəlli verərək məni fərəhləndirirsən... Rəbb mənə qala oldu, Allahım mənə sığınacaq bir qaya oldu! (Zəbur, 94:18, 19, 22)

...Allahınız Rəbdə sevinin və şadlanın... (Yoel, 2:23)

**Göstərişlərinin ardınca gedərkən sevinirəm**, Elə bil bolluca var-dövlətə çatmışam. Qayda-qanunlarını dərindən düşünürəm, Sənin yollarından gözümü çəkmirəm. **Qaydalarından zövq alıram, Sözünü unutmuram** (Zəbur, 119:14-16)

# İMAN GƏTİRƏNLƏR ALLAHA QƏLBDƏN BAĞLI VƏ YAXINDIR

Allahınız Rəbdən qorxun, Ona sitayiş edərək **sadiq qalın** və yalnız Onun adı ilə and için. (Qanunun Təkrarı, 10:20)

Özünüz üçün salehlik əkin, Məhəbbət bəhərini biçərsiniz... **Çünki Rəbbi axtarmaq vaxtıdır...** (Huşə, 10:12)

**Allahın Rəbbə üz tut**, ey İsrail... **Dua sözləri ilə Rəbbə tərəf dönün.** Ona belə deyin: Hər qəbahətimizi bağışla, Bizi mərhəmətlə qəbul et... (Huşə, 14:1–2)

Buna görə də sən Allahına üz tut, Məhəbbətə, ədalətə bağlan, Daim Allahına ümid bağla (Huşə, 12:6)

Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır. (Zəbur, 145:18)

Ey qəlbim, sükutla Allahı gözlə, Çünki ümidim Ondadır. (Zəbur, 62:5)

Ya Rəbb, Sənə ürəyimi təqdim edirəm, (Zəbur, 25:1)

Qoy sizin ürəyiniz bütünlüklə Allahımız Rəbbə sadiq olsun ki, bu gün olduğu kimi Onun qanunları ilə gedəsiniz və **Onun əmrlərinə əməl edəsiniz.** (Birinci Padşahlar, 8:61)

Məni sevənləri sevirəm, **Məni səylə axtaran tapır.** (Süleymanın Məsəlləri, 8:17)

Siz Allahınız Rəbbin ardınca gedin və Ondan qorxun. **Onun əmrlərinə əməl edib sözlərinə qulaq asın, Rəbbə sitayiş edərək Ona bağlı qalın.** (Qanunun Təkrarı, 13:4)

Allahınız Rəbbi sevin, sözü qulağınızda qalsın və Ona bağlanın. Çünki sizin həyatınız Odur... (Qanunun Təkrarı, 30:20)

Yalnız bu günə qədər etdiyiniz kimi **Rəbbə etibar edin.** (Yeşua, 23:8)

Elə buna görə **ürəklərinizi sünnət edin** ki, bir daha dikbaş olmayasınız. (Qanunun Təkrarı, 10:16)

Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Onu çağırın. (Yeşaya, 55:6)

**Bütün qəlbimlə Səni axtarmışam**, Qoyma əmrlərindən çıxım. Sənə qarşı günah etməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam. Ya Rəbb, Sənə alqış olsun! Qaydalarını mənə öyrət. Ağzından çıxan hər hökmü Dilimlə bəyan edirəm. (Zəbur, 119:10–13)

**Rəbb belə bəyan edir ... Bütün qəlbinizlə Mənə dönün.** Paltarlarınızı deyil, ürəyinizi yırtın, Allahınız Rəbbə tərəf qayıdın. Çünki O, lütfkar və rəhmlidir, Hədsiz səbirlidir, bol məhəbbətlidir, Bəla göndərməz, rəhm edər. (Yoel, 2:12–13)

# İMAN GƏTİRƏNLƏR ALLAHI SEVİNCLƏ XATIRLAYIB UCALDAR

Onda Allahın qurbangahına, Sevincim, fərəhim olan Allahımın yanına gedərəm. Lira çalıb Sənə şükür edərəm, Ey Allah, mənim Allahım. (Zəbur, 43:4)

Ey bütün xalqlar, **əl çalın, Cuşa gəlib Allaha nida edin!** Haqq-Taala Rəbb necə də zəhmlidir, Bütün yer üzünün böyük Padşahıdır! (Zəbur, 47:1-2)

**Mən isə Sənin qüdrətini tərənnüm edəcəyəm, Sübh tezdən məhəbbətini mədh edəcəyəm.** Çünki Sən mənə qala olmusan, Dar günümdə mənim pənahımsan. Ey mənə qüvvət verən, **Səni tərənnüm edəcəyəm**! Ey Allahım, qalamsan, Mənə məhəbbətini göstərirsən! (Zəbur, 59:16-17)

Ey bütün dünya, cuşa gəlib Rəbbə nida edin, Sevinclə Rəbbə qulluq edin, Mədh oxuyaraq Onun hüzuruna gəlin! Rəbb Allahdır, siz bunu bilin, O bizi yaradıb, biz Ona aidik ... Dərgahına şükürlərlə, Həyətlərinə həmdlərlə gəlin. Ona şükür edin, İsminə alqış söyləyin. Rəbb nə yaxşıdır, məhəbbəti əbədidir, Sədaqəti nəsillərdən-nəslə çatır! (Zəbur, 100:1-5)

Bu şərəfə görə qoy möminlər sevinsinlər, Yataqlarında belə, Onu tərənnüm etsinlər. (Mezmurlar, 149:5)

**Qullarım şadlanıb mədhiyyələr söyləyəcək**, Sizsə ürək ağrısından qışqıracaqsınız, Kədərli ruhla fəryad edəcəksiniz. (Yeşaya, 65:14)

Sevdiyi Yaqubun fəxri olan torpağı Bizə mülk etmək üçün seçdi. **Sela Allah nida ilə ucaldı, Rəbb şeypur səsi ilə yüksəldi. Tərənnüm edin Allahı, tərənnüm edin! Tərənnüm edin Padşahımızı, tərənnüm edin!** Çünki Allah bütün yer üzünün Padşahıdır, Onu ilahilərlə tərənnüm edin. Allah Öz müqəddəs taxtında əyləşir, Allah millətlərə padşahlıq edir. İbrahimin Allahının xalqı ilə bir yerdə olmaq üçün Xalqların əsilzadələri yığılır, Çünki yer üzünün sipərləri Allahındır. O nə qədər ucadır! (Zəbur, 47:4-9)

Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam, Sənin sədaqətini dilim hər nəslə deyəcək. Deyirəm ki, məhəbbətin əbədiyaşardır, Sədaqətin göylər qədər sarsılmazdır ... Ya Rəbb, göylər Sənin xariqələrinə şükür etsin, Müqəddəslər camaatı arasında sədaqətinə həmd edilsin ... Ya Rəbb, Ordular Allahı, Sənin tək qüdrətli varmı? Səni sədaqətin bürüyüb ... Salehlik və ədalət taxtının təməlidir, Məhəbbət və sədaqət önündə gedir! (Zəbur, 89:1-2, 5, 8, 14)

# İMAN GƏTİRƏNLƏR ALLAHIN ƏMİRLƏRİNƏ SEVƏ-SEVƏ VƏ ZÖVQ ALARAQ İTAƏT EDƏR

Sağ qalan İsraillilər hansı əhali arasında yaşayırsa, qoy onlar Yerusəlimdəki Allah evinə verəcəkləri könüllü ianələrdən başqa, qızıl-gümüş, əşya və heyvanlar verməklə bu adamlara kömək etsinlər. (Ezra, 1:4)

...Allahınız Rəbbi sevin, tamamilə Allahın göstərdiyi yolla gedin və əmrlərinə əməl edin, Ona bağlanın, bütün qəlbinizlə, bütün varlığınızla yalnız Ona qulluq edin (Yeşua, 22:5)

**Göstərişlərinin ardınca gedərkən sevinirəm, Elə bil bolluca var-dövlətə çatmışam.** Qayda-qanunlarını dərindən düşünürəm, Sənin yollarından gözümü çəkmirəm. **Qaydalarından zövq alıram**, Sözünü unutmuram. Quluna comərdliyini göstər, Qoy yaşayım və sözünə bağlı qalım. Gözlərimi aç ki, Qanununun xariqələrini görüm. (Zəbur, 119:14-18)

Pislərin məsləhəti ilə getməyən, Günahkarların yolunda dayanmayan, Rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O ancaq Rəbbin Qanunundan zövq alar, Gecə-gündüz bu təlimatı dərin düşünər. (Zəbur, 1:1-2)

Başıma sıxıntı və məşəqqət gəldi, Amma Sənin əmrlərin mənə zövq verdi. Sənin göstərişlərin həmişə ədalətlidir, Mənə ağıl ver ki, yaşayım. (Zəbur, 119:143-144)

Rəbbin qanunu kamildir, canı təzələyir, Rəbbin öyüdü etibarlıdır, nadanı müdrik edir. Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir, Rəbbin əmrləri pakdır, gözləri aydın edir. Rəbb qorxusu safdır, əbədi yaşayır, Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir. Onlar qızıldan, bol miqdarda olan saf qızıldan da çox sevilir, Onlar baldan, şanı balından da şirindir. (Zəbur, 19:7-10)

Rəbbin işləri böyükdür, Bunlardan zövq alanlar ibrət götürür. (Zəbur, 111:2)

Başçılar yığılıb mənim üçün qəsd qurdular, Lakin mən qulun qaydalarını dərin düşünürəm. **Göstərişlərin mənə zövq verir**, Onlar mənim məsləhətçilərimdir. (Zəbur, 119:23-24)

Sənin əmrlərindən zövq alıram, Onları sevirəm. Sevdiyim əmrlərinə tərəf əl açacağam, Sənin qaydalarını dərindən düşünəcəyəm. (Zəbur, 119:47-48)

Quluna verdiyin kəlama görə Məhəbbətin mənə təsəlli versin. Mənə mərhəmət et ki, yaşayım, Çünki **qanunundan zövq alıram**. (Zəbur, 119:76-77)

**Sənin qanunundan zövq almasaydım**, Əzab çəkməkdən həlak olardım. Qayda-qanunlarını heç vaxt unutmaram, Çünki onlarla məni həyata qaytarmısan. Qurtar məni, mən Səninəm, Qayda-qanunlarını axtarmışam. Pislər məni öldürmək üçün pusqu qurarkən Mən Sənin göstərişlərinin üzərində düşünürəm. Görmüşəm ki, hər kamil şeyin qarşısına bir hədd qoyulur, Sənin əmrlərin isə sərhəd tanımır. **Qanununu nə qədər sevirəm! Həmişə onun üzərində dərindən düşünürəm. Əmrlərin məni düşmənlərimdən daha müdrik edir, Çünki onlar həmişə mənimlədir.** Bütün müəllimlərimdən daha aqil olmuşam, Çünki göstərişlərin üzərində dərindən düşünürəm. Ağsaqqallardan da artıq dərrakəliyəm, Çünki qayda-qanunlarına əməl edirəm. Ayağımı hər pis yoldan kənar qoydum ki, Sözlərinə bağlı qalım. Hökmlərindən dönməmişəm, Çünki məni Sən belə öyrətmisən. **Vədlərin**

**damağıma necə də ləzzət verir! Onlar dilimdə baldan şirindir. Qayda-qanunlarına görə dərrakəliyəm, Buna görə hər yanlış yola nifrət edirəm.** (Zəbur, 119:92-104)

Qızıldan, saf qızıldan çox Sənin əmrlərini sevirəm. Bəli, bütün qayda-qanunlarına görə Mən düz yolla gedirəm, Bütün səhv yollarasa nifrət edirəm. (Zəbur, 119:127-128)

Göstərişlərinin heyrətamizliyinə görə Onlara ürəkdən əməl edirəm. Kəlamının açıqlanması nur saçır, Hər nadanı ağıllandırır. Ağız açıb ah-zar edirəm, Çünki əmrlərinin həsrətini çəkirəm... Ya Rəbb, adilsən, Hökmlərin doğrudur. Buyurduğun göstərişlər ədalətlidir, Onlar tamamilə etibarlıdır. Qeyrətim məni yandırıb-yaxıb, Çünki düşmənlərim Sənin sözlərini unudub. Sənin kəlamın çox safdır, Bu qulun onu sevir (Zəbur, 119:129-131,137-140)

# İMAN GƏTİRƏNLƏR ALLAH SEVGİSİNDƏN VƏ İMANDAN QAYNAQLANARAQ XOŞBƏXTDİR

Fəqət mən bol məhəbbətin naminə evinə gələcəyəm, Üz tutub müqəddəs məbədinə qorxu ilə səcdə edəcəyəm ... Sənə pənah gətirənlərsə qoy sevinsin, Qoy Səni daima mədh etsinlər, Çünki onları Sən qoruyursan. Səni sevənlər sevincdən cuşa gəlsin!   (Zəbur, 5:7,11)

Bütün ürəyimlə Rəbbə şükür edəcəyəm, Bütün xariqələrini deyəcəyəm. **Sənə görə fərəhimdən sevinib cuşa gələcəyəm**, Ey Haqq-Taala, ismini tərənnüm edəcəyəm! (Zəbur, 9:1-2)

Rəbbə əbədilik üz tutmuşam, Sağımda olduğu üçün sarsılmaram. **Elə bunun üçün qəlbim sevinir, ruhum şad olur**, Cismim əmin-amanlıqda yaşayır. Çünki məni ölülər diyarına atmazsan, Mömin insanını qəbirə salmazsan. Mənə həyat yolunu öyrədirsən, Doyunca sevinc Sənin hüzurundadır, Sağ əlində hər zaman səadət var. (Zəbur, 16:8-11)

Onda Allahın qurbangahına, Sevincim, fərəhim olan Allahımın yanına gedərəm. Lira çalıb Sənə şükür edərəm, Ey Allah, mənim Allahım. (Zəbur, 43:4)

Ey bütün xalqlar, əl çalın, **Cuşa gəlib Allaha nida edin!** Haqq-Taala Rəbb necə də zəhmlidir, Bütün yer üzünün böyük Padşahıdır! (Zəbur, 47:1-2)

Ey Allah, mənim Allahım Sənsən, Sənin üçün yaman qəribsəmişəm. Quraq, cansıxıcı, susuz bir diyarda Sənsiz könlüm susuzdur. Bütün varlığımla həsrətini çəkirəm. (Zəbur, 63:1)

Mənim dilim Səni tərənnüm edir, Məhəbbətin bu həyatdan gözəldir. Bütün ömrüm boyu Sənə alqış edəcəyəm, Əllərimi qaldırıb adınla Səni səsləyəcəyəm. Sanki yağlı yeməklə canım tox olacaq, Dilim Səni mədh edəcək, ağzım həmd oxuyacaq. Yatanda belə, Səni xatırlayıram, Gecə növbələrində Səni düşünürəm. Sən mənə kömək oldun, Qanadlarının kölgəsində Sənə mədh oxuyacağam. Könlüm Sənə bağlanır, Sağ əlin məni möhkəm tutur. (Zəbur, 63:3-8)

Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir, Qəlbim Rəbbin həyətinin həsrətindədir, Könlüm, cismim var olan Allaha mədh oxuyur. Ey Ordular Rəbbi, Padşahım, Allahım, Qurbangahının yaxınında sərçələr yurd salar, Qaranquş bala çıxartmaq üçün yuva qurar. Nə bəxtiyardır evində yaşayanlar, Daim Sənə həmd oxuyanlar! Sela (Zəbur, 84:1-4)

**Xanna Rəbbə belə dua etdi: "Rəbdə tapdığım sevincdən ürəyim cuşa gəlir**, Rəbb mənə böyük güc verir, Düşmənlərimin önündə öyünürəm, Çünki Sən məni qurtardığına görə sevinirəm. Rəbbə oxşar ikinci müqəddəs yoxdur, Ey Rəbb, yeganəsən Sən! Allahımız kimi sığınacaq qaya yoxdur!" (Birinci Şamuel, 2:1-2)

# İMAN GƏTİRƏNLƏR BİR-BİRİLƏRİNİ SEVƏR VƏ BİR-BİRİLƏRİNİN VƏLİSİDİR

Ordular Rəbbi belə deyir: “Düzgün və ədalətlə mühakimə edin. **Hər kəs bir-birinə məhəbbət və mərhəmət göstərsin.**” (Zəkəriyyə, 7:9)

Daha qorxmayın, mən həm sizi, həm də övladlarınızı saxlayacağam. “Yusif onlara ürəklərincə olan sözlərlə təsəlli verdi.” (Yaradılış, 50:21)

Rəbb Haruna dedi: “Musanı qarşılamaq üçün səhraya get.” Harun gedib Allahın dağında qardaşına rast gəldi və onunla öpüşdü. (Çıxış, 4:27)

Lavan bacısı oğlu Yaqubun gəldiyini eşidəndə onu qarşılamağa qaçdı. **Onu qucaqlayıb öpdü** və evinə gətirdi. Yaqub hər şeyi Lavana danışdı. Lavan ona dedi: **“Sən, doğrudan da, mənim sümüyümdən, mənim ətimdənsən.”** Yaqub onun yanında bir ay qaldı. (Yaradılış, 29:13-14)

Esav Yaqubu qarşılamaq üçün **qaçıb onu qucaqladı və boynuna sarılıb öpdü...** Esav dedi: “Mənim sürüm çoxdur, qardaşım, səndə olan sənin olsun.” Yaqub dedi: “Yox, xahiş edirəm, indi gözündə lütf tapdımsa, məndən bu hədiyyələri götür. Çünki sənin üzünü görəndə Allahın üzünü görmüş sandım, mənə qarşı çox xeyirxah oldun. **Xahiş edirəm, sənə gətirilən hədiyyələri götür.** Çünki Allah mənə lütf etdi və indi mənim hər şeyim var.” Yaqub təkid etdikdən sonra Esav hədiyyələri götürdü. (Yaradılış, 33:4,9-11)

Yanındakı soydaşın yoxsullaşıb və özünü təmin edə bilmirsə, ona yardım et... (Levililər, 25:35)

Soydaşının eşşəyini, paltarını yaxud itirdiyi başqa şeyləri tapanda da bu cür etməlisən. Özünü görməməzliyə vurma. Görəndə ki soydaşının eşşəyi yaxud öküzü yolda yıxılıb, özünü görməməzliyə vurma. Mütləq heyvanı ayağa qaldırmaq üçün soydaşına kömək et. (Qanunun Təkrarı, 22:3-4)

...Soydaşınız üçün xəsislik etməyin, ona kömək etməkdən boyun qaçırmayın. Yoxsa kasıb soydaşınız sizdən Rəbbə şikayət edər və günah qazanarsınız. Kasıba səxavətlə, könüllü surətdə yardım edin, çünki buna görə Allahınız Rəbb bütün əməyinizə, əl atdığınız hər işə bərəkət verəcək. ... Ölkədə həmişə kasıblar olacaq, buna görə mən sizə belə əmr edirəm: mütləq öz ölkənizdəki kasıb və möhtac soydaşınıza qarşı əliaçıq olun. (Qanunun Təkrarı, 15:9-11)

Hər kəs qonşusuna kömək edir, **Qardaşına “Cəsur ol!” deyir.** (Yeşaya, 41:6)

Yediyiniz çörəyi acla bölüşdürmək, Yurdsuz kasıbları evinizə gətirmək deyilmi? Mənim istədiyim oruc bu deyilmi? Çılpaq görəndə geyindirmək, Yaxınlarınızdan köməyinizi əsirgəməmək deyilmi? Onda nurunuz şəfəq kimi saçacaq, Tezliklə şəfa tapacaqsınız... (Yeşaya, 58:7-8)

Onlara belə dedi: “İndi öz çadırlarınıza çoxlu var-dövlətlə qayıdırsınız. Özünüzə xeyli heyvan, qızıl-gümüş, tunc, dəmir və çoxlu paltar götürmüsünüz. Düşmənlərinizdən qarət etdiyiniz bu malı **soydaşlarınıza paylayın.**” (Yeşua, 22:8)

Nehemya da onlara dedi: “Gedin, yağlı yemək yeyin, şirin içki için və hazırlıqlı olmayanlara da pay göndərin, çünki bu gün Xudavəndimiz üçün müqəddəsdir... Bütün xalq yeyib-içməyə, paylar

göndərməyə və böyük şənlik etməyə getdi. Çünki xalq ona deyilənləri başa düşdü. (Nehemya, 8:10–12)

Davudla birlikdə gedən adamlar arasında olan bütün pis və yaramaz adamlar belə dedilər: “Onlar bizimlə birlikdə getmədikləri üçün biz də qurtardığımız talan malından onlara heç nə verməyəcəyik. Ancaq hər adama öz arvad-uşaqlarını verəcəyik. Qoy onları götürüb buradan getsinlər.” Amma Davud onlara belə dedi: **Xeyr, qardaşlarım! Rəbbin bizə verdiyi şeylərlə belə etməyəcəksiniz.** Bizi qoruyan Rəbdir və üstümüzə gələn basqınçıları O bizə təslim etdi. Davud bütün İsrail üçün o gündən bu günə qədər davam edən bir qanun və hökm yaratdı. (Birinci Şamuel, 30:22-23, 25)

# ALLAH ONA GÜVƏNƏNLƏRİN VƏLİSİDİR

Xanna Rəbbə belə dua etdi: Rəbdə tapdığım sevincdən ürəyim cuşa gəlir, Rəbb mənə böyük güc verir, Düşmənlərimin önündə öyünürəm, Çünki Sən məni qurtardığına görə sevinirəm. Rəbbə oxşar ikinci müqəddəs yoxdur, Ey Rəbb, yeganəsən Sən! Allahımız kimi sığınacaq qaya yoxdur! (Birinci Şamuel, 2:1-2)

O belə oxudu: Ey mənə qüvvət verən Rəbb, Səni sevirəm. Rəbb qayam, qalam, xilaskarımdır, Allahım qayamdır, Ona pənah gətirəcəyəm, Odur qalxanım, qüdrətli qurtarıcım, qülləm. Həmdə layiq Rəbbi çağıracağam, Düşmənlərimin əlindən qurtulacağam. O məni genişliyə çıxardı, Məndən razı qalıb məni qurtardı. Rəbb mənə salehliyim naminə ənam verdi, Mənə əlitəmizliyimin əvəzini verdi. Çünki Rəbbin yolunu tutmuşam, Pis olub Allahımın yolundan azmamışam. (Zəbur, 18:1-3,19-21)

Pislərin başına çox bəla gələr, **Rəbbə güvənənlər isə hər tərəfdən məhəbbətə bürünər.** Ey salehlər, fərəhlənin, Rəbbə görə sevinin! Ey ürəyidüz olanlar, Onu mədh edin! (Zəbur, 32:10-11)

Susan qəlbim yalnız Allahı gözləyir, Ondadır qurtuluşum. Yalnız Odur qayam, qurtuluşum, O mənim qalamdır, mən əsla sarsılmaram... Ey qəlbim, sükutla Allahı gözlə, Çünki ümidim Ondadır. Qayam, qurtuluşum yalnız Odur, O mənim qalamdır, mən sarsılmaram. Qurtuluşum, şərəfim Allaha bağlıdır, Allah möhkəm qayam və pənahımdır. Ey xalq, hər zaman Ona arxalan, Onun hüzurunda qəlbini açıb-boşalt, Çünki Allah bizim pənahımızdır!... Heç zaman zorakılığınıza güvənməyin, Talan malına boş yerə ümid bağlamayın, Var-dövlətiniz artsa da, ona arxalanmayın... Qüdrət Allahındır, Ey Xudavənd, məhəbbət Sənindir! Sən hər kəsə əməlinə görə əvəz verirsən! (Zəbur, 62:1-12)

Mənim dilim Səni tərənnüm edir, Məhəbbətin bu həyatdan gözəldir. Bütün ömrüm boyu Sənə alqış edəcəyəm, Əllərimi qaldırıb adınla Səni səsləyəcəyəm. Sanki yağlı yeməklə canım tox olacaq, Dilim Səni mədh edəcək, ağzım həmd oxuyacaq. Yatanda belə, Səni xatırlayıram, Gecə növbələrində Səni düşünürəm. **Sən mənə kömək oldun, Qanadlarının kölgəsində Sənə mədh oxuyacağam. Könlüm Sənə bağlanır, Sağ əlin məni möhkəm tutur.** (Zəbur, 63:3-8)

**Ey Xudavənd, bütün nəsillərdən bəri Bizə pənah yeri olmusan.** Dağlara təvəllüd verməmişdən əvvəl, Kainatı, dünyanı doğmazdan əvvəl Əzəldən axıradək Allah Sənsən. (Zəbur, 90:1-2)

Pislərin başına çox bəla gələr, **Rəbbə güvənənlər isə hər tərəfdən məhəbbətə bürünər. Ey salehlər, fərəhlənin, Rəbbə görə sevinin!** Ey ürəyidüz olanlar, Onu mədh edin! (Zəbur, 32:10-11)

**Çünki Rəbbin sözü haqdır, Hər işini sədaqətlə aparır. Rəbb salehliyi və ədaləti sevir, Yer üzü Onun məhəbbəti ilə dolur.** Göylər Rəbbin sözü ilə... yarandı. Dənizin sularını bir yerə yığdı, Dərin suları anbarlarda saxladı. Qoy bütün dünya Rəbdən qorxsun, Bütün yer üzünün əhalisi Onu şərəfləndirsin. **Çünki nə söylədi, mövcud oldu, Nə əmr etdi, quruldu.** Rəbb millətlərin məsləhətini puç edər, Xalqların məqsədini heç edər. Lakin Rəbbin məsləhəti əbədi olar, Ürəyinin məqsədi nəsillər ötsə də, qalar. **Nə bəxtiyardır o millət ki Allahı Rəbdir, O xalq ki Rəbb onu irs olaraq seçmişdir. Rəbb göylərdən baxır, Bütün bəşər övladlarını görür, Odur hər bir insanın ürəyini yaradan, Əməllərini anlayan.** Qoşunun çoxluğu ilə heç bir padşah qurtulmaz, Qolunun gücü ilə heç bir cəngavər zəfər çalmaz. Qələbə üçün at boş şeydir, Qüvvətinin çoxluğu ilə bir kimsə xilas olmaz. Rəbbin gözü Ondan qorxanlara, Onun məhəbbətinə ümid bağlayanlara baxar. İstəyir ki, onları

ölümdən qurtarsın, Qıtlıqda belə, onlar sağ qalsın. **Könlümüz Rəbbin yolunu gözlər, Odur köməyimiz və sipərimiz. Bizim qəlbimiz Onda sevinc tapır, Müqəddəs isminə arxalanmışıq.** Ya Rəbb, ümidimizi Sənə bağlamışıq, Məhəbbətin üzərimizdən tükənməsin. (Zəbur, 33:4-22)

Allah mənim sipərimdir, Ürəyidüz olanları xilas edir. (Zəbur 7:10)

Arxayın yatıb yuxuya gedirəm, Çünki **yalnız Sən, ya Rəbb, məni əmin-amanlıqda yaşadırsan!** (Zəbur, 4:8)

# ALLAH SEVDİYİ QULLARINI GÜNAHLARDAN TƏMİZLƏYƏR

Təqsirimi tamamilə yu, Günahımdan məni təmizlə (Zəbur, 51:2)

**...Ürəyini pislikdən yuyub-təmizlə ki, xilas olasan.** Bəd fikirlərin nə vaxta qədər içində qalacaq? (Yeremya, 4:14)

Yaqub ailəsinə və onunla olanların hamısına dedi: "Yanınızda olan özgə büt allahlarını atın" və **özünüzü pak edib paltarlarınızı dəyişin.** (Yaradılış, 35:2)

Artıq bütləri, iyrənc şeyləri və üsyanları ilə özlərini murdar etməyəcəklər. **Onları yaşadıqları və içində günah etdikləri yerlərdən qurtarıb pak edəcəyəm...** (Yezekel, 37:23)

Çoxları paklanıb ləkəsiz və təmiz olacaq, pis adamlar isə şər işlərindən dönməyəcək. Pis adamlardan heç biri bu sözləri başa düşməyəcək, ağıllı adamlar isə başa düşəcək. (Daniel, 12:10)

Əlləri pak, qəlbi təmiz, Hiyləyə könül verməyən, Yalandan and içməyən insan. O, **Rəbdən bərəkət alacaq, Xilaskarı Allahdan salehlik alacaq.** Belə adam Rəbbi soraqlayar, Yaqubun Allahının üzünü axtarar. Sela (Zəbur, 24:4-6)

Bununla Harun İsrail övladlarının murdarlığına, qanunsuzluğuna və bütün günahlarına görə Müqəddəs yer üçün kəffarə etsin; murdar xalqın arasında yerləşdiyinə görə Hüzur çadırı üçün belə etsin. (Levililər, 16:16)

...Götür və onları pak et. (Saylar, 8:6)

Ey Allah, bizi sınaqdan keçirtdin, Sən bizi gümüş kimi təmizləyib saflaşdırdın. (Zəbur, 66:10)

Qızıl-gümüş isti kürədə yoxlanar, **Rəbb isə ürəyi araşdırar.** (Süleymanın Məsəlləri, 17:3)

Üstünüzə təmiz su səpəcəyəm, pak olacaqsınız. Sizi bütün murdarlıqlarınızdan və bütlərinizdən təmizləyəcəyəm. (Yezekel, 36:25)

**Xudavənd Rəbb belə deyir: Sizi bütün təqsirlərinizdən təmizlədiyim vaxt** şəhərləri məskunlaşdıracaq, xaraba yerləri abad edəcəyəm. (Yezekel, 36:33)

Ağıllı adamlardan bəzisi həlak olacaq ki, qalanları **axır zamana qədər paklanıb təmizlənsin və ləkəsiz olsun.** Çünki axır zaman yenə də müəyyən vaxtda olacaq. (Daniel, 11:35)

...Günahdan və murdarlıqdan təmizləmək üçün bir bulaq açılacaq (Zəkəriyyə, 13:1)

Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor baxma, Onun məzəmmətinə nifrət etmə. Ata sevdiyi oğlunu necə məzəmmət edərsə, Rəbb də sevdiyini elə məzəmmət edər. (Süleymanın Məsəlləri, 3:11-12)

# YAXŞILIQ EDƏNLƏR ALLAHIN SEVGİSİNİ QAZANAR

Şər quranlar yolundan azmırlarmı? **Məqsədi xeyirxahlıq olan xeyirxahlığa, sədaqətə çatar.** (Süleymanın Məsəlləri, 14:22)

**Pislikdən yaxşılığa dönün ki, sağ qalasınız**! Beləcə iddia etdiyiniz kimi Ordular Allahı Rəbb, Həqiqətən, sizə yar olacaq (Amos, 5:14)

Səylə yaxşılığın ardınca gedən lütf axtarar, Şər ardınca düşən isə başını bəlaya salar. Salehin barı həyat ağacıdır, Hikmətli insan canları qurtarar. Əgər bu dünyada salehlərə belə, cəza verilirsə, Pislərə, günahkarlara gör nə qədər cəza verilər! (Süleymanın Məsəlləri, 11:27, 30)

Qoy şərdən çəkinib yaxşılıq etsin, Sülhü axtarıb ardınca getsin! (Zəbur, 34:14)

Şərdən çəkinib yaxşılıq et ki, Ölkədə əbədi məskən sala biləsən. (Zəbur, 37:27)

Bütün yollarında Onu tanı, O sənin yollarını düzəldər. Öz gözündə özünü hikmətli sanma, Rəbdən qorx, şərdən çəkin. Bu, bədəninə şəfa verər, Sümüklərinə ilik olar. (Süleymanınn Məsəlləri, 3:6–8)

Pisliyə nifrət edin, **yaxşılığı sevin...** (Amos, 5:15)

Qoyma qəlbim şərə meyl etsin, Şər iş görənlərə qoşulub mən də pis iş görməyim... **Saleh insan məni vursa, məhəbbətinə görə tənbeh edər, Bundan imtina etmərəm, sanki başıma çəkilən yağdır.** Daim pislərin şərinə qarşı dua edərəm. (Zəbur, 141:4–5)

Kasıba səxavət göstərən sanki Rəbbə borc verər, **Çünki onun əvəzi Rəbdən gələr** (Süleymanın Məsəlləri, 19:17)

**Saleh adamlara söyləyin ki, Onlara yaxşılıq ediləcək, Çünki onlar xeyirxahlıqlarının bəhrəsini yeyəcək.** Pis adamların vay halına! Çünki onlara pislik olunacaq, Elədikləri əmlləri qarşılarına çıxacaq. (Yeşaya, 3:10–11)

İnsanın sadiqliyi ona xeyir gətirər, Qəddar adam özünə əzab verər. (Süleymanın Məsəlləri, 11:17)

# ALLAHA DƏRİN SEVGİ İLƏ BAĞLI OLANLAR, SADİQ VƏ VƏFALIDIR

**Qoy səni xeyirxahlıq və sədaqət tərk etməsin, Onları boynuna bağla, ürəyinin lövhəsinə yaz.** Onda Allahın və insanların gözündə Lütf tapıb şərəfə çatarsan. (Süleymanın Məsəlləri, 3:3-4)

Qoy ata-babaları kimi olmasınlar, Çünki onlar dikbaş, üsyankar bir nəsil idi. **Allaha ürəkləri dönük, Könülləri vəfasız idi.** (Zəbur, 78:8)

Ey insan, Allah sənə yaxşı olanı bildirdi; Ədalət yaratmaqdan, məhəbbət göstərməyi sevməkdən, İtaətkarcasına Allahınla bir yol getməkdən başqa Rəbb səndən nə istəyir ki? (Mikeya, 6:8)

Rəbbə güvən, yaxşılıq et, Bu diyarda arxayın ömür sür. (Zəbur, 37:3)

**Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq**, Salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək. Həqiqət yerdə bitib-göyərəcək, Ədalət göylərdən baxacaq. (Zəbur, 85:10-11)

...Özlərini sədaqətlə müqəddəs xidmət üçün təqdis etmişdilər - (İkinci Səlnamələr, 31:18)

O, ədalətin yollarını qoruyur, **Möminlərin yollarını hifz edir.** (Süleymanın Məsəlləri, 2:8)

**Kim Rəbbin əhdinə və göstərişlərinə bağlıdırsa**, Rəbb yolunda onun üçün xeyirxahlıq və sədaqət var. (Zəbur, 25:10)

**Sadiq qullarının addımlarını qoruyur**, Pisləri isə zülmətdə susdurur. Çünki insan öz qüvvəsi ilə zəfər çalmır. (Birinci Şamuel, 2:9)

O, belini salehliklə qurşayacaq, Sədaqəti kəmər kimi taxacaq. (Yeşaya, 11:5)

Rəbbi sevin, siz ey bütün möminlər! Rəbb həmişə Ona sadiq qalanı qoruyur, Təkəbbürlü insana isə layiq olduğunu verir. (Zəbur, 31:23)

**Çünki Rəbb ədaləti sevir, Heç zaman möminlərini tərk etmir.** Salehlər daim müdafiə olunacaq, Pislər nəsilliklə kəsilib atılacaq. (Zəbur, 37:28)

...Sözləri xalqına, möminlərinə sülh bəyan edər ki, Onlar öz cəhalətlərinə dönməsinlər. (Zəbur, 85:8)

Ey Rəbbi sevənlər, şərə nifrət edin! **O, möminlərinin canını qoruyar**, Onları pislərin əlindən qurtarar. (Zəbur, 97:10)

Kahinlərin həqiqətə bürünsün, Möminlərin Səni mədh etsin. Kahinlərini zəfərə bürüyəcəyəm, Möminləri sevinclə mədh oxuyacaq. (Zəbur, 132:9, 16)

Rəbb, bütün yaratdıqların Sənə şükür edəcək, **Möminlərin Sənə alqış edəcək.** (Zəbur, 145:10)

**Rəbbə həmd edin!... Möminlər camaatı arasında Ona həmd edin!** İsrail nəsli Yaradanına görə sevinsin, Sion övladları Padşahına görə şad olsun! Bu şərəfə görə qoy möminlər sevinsinlər, Yataqlarında belə, Onu tərənnüm etsinlər. (Zəbur, 149:1-2, 5)

Həqiqət, ədalət və doğruluqla Var olan Rəbbə and olsun!" deyə and içsən... (Yeremya, 4:2)

Bax, bu adam məğrurdur, köksündəki ürəyi düz deyil, **Amma saleh adam imanı ilə yaşayacaq** (Habaqquq, 2:4)

Sədaqətlilərlə sədaqətlisən... (Zəbur, 18:25)

Gözüm ölkənin sadiq insanlarına baxar... (Zəbur, 101:6)

# ALLAH İMAN GƏTİRƏNLƏRƏ KÖMƏK EDƏR

Ey Allah, göylər üzərində ucal! Ehtişamın bütün yer üzərində olsun! Sevdiyin insanların xilas olması üçün **Sağ əlinlə bizi qurtar**, mənə cavab ver! (Zəbur, 108:5-6)

Ey Rəbbi sevənlər, şərə nifrət edin! O, möminlərinin canını qoruyar, Onları pislərin əlindən qurtarar (Zəbur, 97:10)

Rəbb sizi sevdiyi və atalarınıza verdiyi vədi yerinə yetirmək istədiyi üçün qüdrətli əli ilə sizi Misirdən çıxartdı. O sizi kölələik diyarından, Misir padşahı firondan satın aldı. (Qanunun Təkrarı, 7:8)

İsmini tanıyanlar Sənə güvənir, **Çünki, ya Rəbb, Səni axtaranları tərk etməzsən!** Rəbbi tərənnüm edin! Xalqlar arasında Onun işlərini bəyan edin! (Zəbur, 9:10-11)

Rəbbə əbədilik üz tutmuşam, Sağımda olduğu üçün sarsılmaram. Elə bunun üçün qəlbim sevinir, ruhum şad olur, Cismim əmin-amanlıqda yaşayır. **Çünki məni ölülər diyarına atmazsan, Mömin insanını qəbirə salmazsan.** Mənə həyat yolunu öyrədirsən, Doyunca sevinc Sənin hüzurundadır, Sağ əlində hər zaman səadət var. (Zəbur, 16:8-11)

Ya Rəbb, Sənə ürəyimi təqdim edirəm, Ey Allahım, yalnız Sənə güvənirəm! Məni xəcalətdə qoyma, Qoy düşmənlərim mənə qalib gələrək sevinməsinlər. Sənə ümid bağlayanlar heç zaman utanmasınlar, Haqsız xəyanətkarlarsa rüsvay olsunlar. Ya Rəbb, yollarını mənə göstər, Öz yollarını mənə öyrət. Məni haqq yolu ilə apar, Həqiqətini mənə öyrət. **Məni qurtaran Allah Sənsən**, Daim Səni gözləyirəm. (Zəbur, 25:1-4, 5)

Rəbbi sevin, siz ey bütün möminlər! **Rəbb həmişə Ona sadiq qalanı qoruyur...** (Zəbur, 31:23)

Pislik edənlərə görə narahat olma, Fitnəkarlıq edənlərə qibtə etmə. Tezliklə onlar ot kimi quruyacaq, Yaşıl çəmən kimi tez solacaq. **Rəbbə güvən**, yaxşılıq et, Bu diyarda arxayın ömür sür. Rəbdən zövq al, **O da səni ürəyinin istəklərinə çatdıracaq. Yolunu Rəbbə ver, Ona güvən, O edəcək. Rəbb sənin salehliyini nur kimi aydınlaşdıracaq, Həqiqətini gündüz günəşi tək çıxaracaq. Rəbbin hüzurunda sükut et,** Onu səbirlə gözlə. Yolunda uğur qazanan Hiyləgər insan üçün narahat olma. (Zəbur, 37:1-7)

Salehlərin qurtuluşu Rəbdəndir, Dar gündə onlara pənah yeridir. Rəbb onların imdadına çatır, Onları qurtarıb pislərin əlindən alır, Çünki onlar Rəbbə pənah aparır. (Zəbur, 37:39-40)

Allah-Taalanı çağırıram, Mənim üçün hər şeyi verən Allahı çağırıram. Göydən mənə qurtuluş göndərəcək, Başımı yemək istəyəni rüsvay edəcək. Sela Allah Öz məhəbbətini və sədaqətini göndərəcək. (Zəbur, 57:2-3)

Mən isə Sənin qüdrətini tərənnüm edəcəyəm, Sübh tezdən məhəbbətini mədh edəcəyəm. **Çünki Sən mənə qala olmusan, Dar günümdə mənim pənahımsan.** Ey mənə qüvvət verən, Səni tərənnüm edəcəyəm! **Ey Allahım, qalamsan, Mənə məhəbbətini göstərirsən!** (Zəbur, 59:16-17)

...Səni səsləyənlərin hamısı üçün məhəbbətin boldur. Çünki mənə olan məhəbbətin böyükdür, **Canımı ölülər diyarına enməkdən qurtardın.** (Zəbur, 86:5, 13)

Amma daim Səninlə olmuşam, Mənim sağ əlimdən tutmusan. 24Nəsihətinlə mənə yol göstərirsən, Sonra məni şərəfə çatdıracaqsan. (Zəbur, 73:23-24)

"Mən Rəbbi sevdiyinə görə onu azad edəcəyəm," İsmimi tanıdığına görə onu yüksəldəcəyəm. (Zəbur, 91:14)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir! ... O, miskin halımızda bizi yaddan çıxarmadı, Çünki məhəbbəti əbədidir! Bizi düşmən əlindən qurtardı, Çünki məhəbbəti əbədidir! (Zəbur, 136:1,23-24)

Sıxıntı içində Rəbbi çağırdım, **Cavab verib məni genişliyə çıxartdı. Rəbb mənimlədir**, heç qorxmaram. İnsan mənə nə edə bilər? Rəbb mənimlədir, mənə yardım edər... Rəbbə pənah gətirmək İnsana güvənməkdən yaxşıdır. Rəbbə pənah gətirmək Əsilzadələrə güvənməkdən yaxşıdır... Möhkəm təzyiq altında yıxılmağıma az qalmışdı, Lakin **Rəbb imdadıma çatdı**. Rəbb qüvvətim, məzmurumdur, O məni xilas etdi! Salehlərin çadırlarından... Rəbbin işlərini bəyan edəcəyəm. Rəbb mənə möhkəm cəza verdi, Amma məni ölümə təslim etmədi. Salehlik darvazalarını üzümə açın, Qoy oradan keçib Rəbbə şükür edim. Bu, Rəbbin darvazasıdır, Oradan saleh insanlar keçəcək. **Ya Rəbb, Sənə şükür edirəm, Çünki cavab verərək məni xilas etmisən!** Bənnaların rədd etdiyi daş Guşədaşı olub. Bu, Rəbbin işi idi, Gözümüzdə xariqəli bir işdir. Bu günü Rəbb yaratdı, Onda sevinib şadlıq edək! Aman, ya Rəbb, bizi qurtar! Aman, ya Rəbb, bizə uğur göndər! Rəbbin ismi ilə gələnə alqış olsun!... **Rəbb Allahdır, O, üzərimizə nur saçdı...** (Zəbur, 118:5-27)

**Sadiq qullarının addımlarını qoruyur**, Pisləri isə zülmətdə susdurur. Çünki insan öz qüvvəsi ilə zəfər çalmır. (Birinci Şamuel, 2:9)

# ALLAH SEVDİYİ QULLARINA MÜVƏFFƏQİYYƏT QAZANDIRAR

Sıxıntı içində gəzsəm də, Mənə həyat verirsən. Düşmənin qəzəbinə qarşı əl qaldırırsan... (Zəbur, 138:7)

Rəbb əbədi yaşayır! Qayama alqış olsun! Məni qurtaran Allahım ucalsın! O, Allahdır, mənə görə qisas alır, Xalqları mənə tabe etdirir. O məni düşmənlərimin arasından xilas edir, Bəli, məni yağılar üstündə ucaldır, Məni zalımların əlindən qurtarır. Buna görə, ya Rəbb, Millətlər arasında Sənə şükür edəcəyəm, İsminə tərənnüm söyləyəcəyəm. **O Rəbb padşahına böyük zəfərlər verər, Məsh etdiyi Davuda və nəslinə əbədi məhəbbət göstərər.** (Zəbur, 18:46-50)

Yanında sədaqətim, məhəbbətim olacaq, **Gücü ismimlə artacaq.** (Zəbur, 89:24)

Amma Sən, ya Rəbb, ətrafımda sipərsən, **Şərəfimsən, başımı ucaldan Sənsən!** (Zəbur, 3:3)

Süleyman dedi: "Sən qulun atam Davuda böyük xeyirxahlıq göstərdin... Sənin önündə sadiq və saleh işlər görürdü, düz qəlblə Səninlə idi... (Birinci Padşahlar, 3:6)

**Sözdən hikmət alan xeyir tapar**, Rəbbə güvənən insan nə bəxtiyardır! (Süleymanın Məsəlləri, 16:20)

Onlar qılıncları ilə deyil, Sənin sağ əlinlə torpaqlara sahib oldular. Öz qolları deyil, Sənin sağ qolun onlara zəfər qazandırdı. Onlara üzündən nur verdin, Çünki Sən onları sevirdin. (Zəbur, 44:3)

Bu Qanun kitabının sözləri dilindən düşməsin, orada yazılan hər şeyə dəqiq əməl etmək üçün gecə-gündüz onun üzərində düşün. Onda yolun uğurlu olacaq və müvəffəqiyyət qazanacaqsan. (Yeşua, 1:8)

# ALLAH ÖZ RIZASINI İSTƏYƏNLƏRİ XOŞBƏXTLİK İÇİNDƏ YAŞADAR

Nə xoşbəxtdir o adam ki Rəbbə güvənir, Rəbbi özünə arxa sayır. (Yeremya, 17:7)

Nə bəxtiyardır Onun göstərişlərinə əməl edənlər, Bütün qəlbi ilə Onu axtaranlar. (Zəbur, 119:2)

Nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan! (Zəbur, 128:1)

Nə bəxtiyardır öz yolunda kamil olanlar, Rəbbin qanununa görə yaşayanlar. (Zəbur, 119:1)

**Rəbbə ümidlə arxalanan,** Təkəbbürlülərə üz tutmayan, Bütlərə aldananlara qoşulmayan İnsan nə bəxtiyardır! (Zəbur, 40:4)

Nə bəxtiyardır Səndən qüvvət alanlar... (Zəbur, 84:5)

...Qəlbində hiylə olmayan insan Nə bəxtiyardır! (Zəbur, 32:2)

Ey Ordular Rəbbi, **Sənə güvənən nə bəxtiyardır!** (Zəbur, 84:12)

...Nə bəxtiyardır Rəbdən qorxan, Əmrlərindən zövq alan insan! (Zəbur, 112:1)

Nə bəxtiyardır ədalətə bağlananlar, Hər zaman əməlisaleh olanlar! (Zəbur, 106:3)

Hikmətə çatan, Dərrakə tapan insan nə bəxtiyardır! (Süleymanın Məsəlləri, 3:13)

Allahın tərbiyə etdiyi insan nə bəxtiyardır!... (Əyyub, 5:17)

Ona bağlananlar üçün o, həyat ağacıdır, **Ondan möhkəm yapışanlar nə bəxtiyardır!** (Süleymanın Məsəlləri, 3:18)

Nə bəxtiyardır öz yolunda kamil olanlar, Rəbbin qanununa görə yaşayanlar. Nə bəxtiyardır Onun göstərişlərinə əməl edənlər, Bütün qəlbi ilə Onu axtaranlar. Həqiqətən, onlar fitnəkarlıq etməzlər, Rəbbin yolunda gəzərlər. Sən qayda-qanunlarını qoydun, Bunlara bağlı qalmağı buyurdun. Onda xəcalət çəkməzdim, Sənin bütün əmrlərindən gözümü çəkməzdim. Adil hökmlərini öyrənərkən Sənə düz qəlblə şükür edəcəyəm. Sənin qaydalarına əməl edəcəyəm, Sən məni tamamilə tərk etmə! Bir cavan yolunu necə təmiz saxlaya bilər? - Sənin sözlərinə bağlı qalmaqla. (Zəbur, 119:1-4, 6-9)

Sözdən hikmət alan xeyir tapar, Rəbbə güvənən insan nə bəxtiyardır! (Süleymanın Məsəlləri, 16:20)

...Rəbb nə qədər şirindir**, Nə bəxtiyardır Ona pənah gətirənlər!** (Zəbur, 34:8)

**...Bu qulluqçuların nə bəxtiyardır** ki, həmişə önündə durub hikmətini eşidirlər. (Birinci Padşahlar, 10:8; Salnamələr, 9:7)

...Ona pənah gətirənlərin hamısı nə bəxtiyardır! (Zəbur, 2:12)

**Yoxsulların qayğısına qalan nə bəxtiyardır!** Rəbb dar günündə onu qurtarar (Zəbur, 41:1)

...Nə bəxtiyardır Allahı Rəbb olan xalq! (Zəbur, 144:15)

**...Yoluma bağlı qalan nə bəxtiyardır!** (Süleymanın Məsəlləri, 8:32)

Rəbb belə deyir: Ədaləti qoruyun, salehliyə əməl edin... Bunu edən insan, Buna itaət edən bəşər oğlu nə bəxtiyardır!... (Yeşaya 56:1-2)

Oğlum, təlimimi unutma, Qoy qəlbin əmrlərimə bağlansın. **Onlar ömrünü uzadar, Həyatına illər, firavanlıq artırar.** (Süleymanın Məsəlləri, 3:1-2)

Salehlik və sədaqətin ardınca gedən Həyat, salehlik və şərəf tapar. (Süleymanın Məsəlləri, 21:21)

# İMAN GƏTİRƏNLƏRİN HƏYATINDA İMANIN, SEVGİNİN VƏ GÖZƏL ƏXLAQIN BƏRƏKƏTİ VARDIR

Oğlum, təlimimi unutma, Qoy qəlbin əmrlərimə bağlansın. **Onlar ömrünü uzadar, Həyatına illər, firavanlıq artırar.** (Süleymanın Məsəlləri, 3:1-2)

Salehlik və sədaqətin ardınca gedən Həyat, salehlik və şərəf tapar. (Süleymanın Məsəlləri, 21:21)

Ah, kaş ki sən Mənim əmrlərimə diqqət yetirəydin! Onda əmin-amanlığın heç vaxt qurumayan çay kimi axardı, Salehliyin dəniz dalğaları kimi olardı. (Yeşaya, 48:18)

...Daim belə söyləsinlər: **“Öz qulunun əmin-amanlığını istəyən Rəbb ucalsın!”** (Zəbur, 35: 27)

Günahkarı şər qovar, **Salehin yaxşı bir əvəzi var.** (Süleymanın Məsəlləri, 13: 21)

Nə bəxtiyardır ədalətə bağlananlar, Hər zaman əməlisaleh olanlar! Qoy seçdiklərini bəxtiyar görüm, Millətinin sevinci ilə sevinim, İrsinlə birlikdə fəxr edim. (Zəbur, 106:3, 5)

Rəbdən qorxan kimdir? Rəbb ona yol seçməyi öyrədir. **O bəxtəvər yaşayacaq, Ölkə onun nəslinə irs olaraq qalacaq.** (Zəbur, 25:12-13)

Budur, padşah salehliklə hökm sürəcək, Başçılar ədalətlə rəhbərlik edəcək. Sonra ədalət səhrada məskunlaşacaq, Salehlik məhsuldar tarlada yaşayacaq. **Salehliyin bəhrəsi əmin-amanlıq, Nəticəsi isə əbədi sakitlik və təhlükəsizlik olacaq.** (Yeşaya, 32:1, 16-17)

# ALLAH ONDAN QORXANLARI SEVƏR

Amma Rəbb Ondan qorxanlardan, Onun məhəbbətinə ümid bağlayanlardan razı qalar. (Zəbur, 147:11)

**Ey Rəbdən qorxanlar**, Rəbbə güvənin, Odur köməyiniz və sipəriniz! Kiçikdən böyüyə qədər **Ondan qorxanlara xeyir-dua verəcək.** (Zəbur, 115:11, 13)

Rəbbin isə Ondan qorxanlara olan məhəbbəti, Onların övladlarına olan salehliyi Əzəldən var, bu əbədi qalacaq. Onun əhdinə vəfa edənlərə bunları göstərir, Qayda-qanunlarını yerinə yetirənləri unutmur. (Zəbur, 103:17-18)

Nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan! Çünki öz əlinin bəhrəsini yeyəcəksən, Xoşbəxt olub uğur qazanacaqsan... Rəbdən qorxan insan Belə xeyir-dua alacaq: (Zəbur, 128:1-4)

Rəbb qorxusu insana həyat verər, Ona şər yaxınlaşmaz, tox yatar. (Süleymanın Məsəlləri, 19:23)

Rəbdən qorxan tam arxayındır... Rəbb qorxusu həyat qaynağıdır... (Süleymanın Məsəlləri, 14:26-27)

**Kaş ki ürəkləri dönməsin, Məndən qorxsunlar** və bütün əmrlərimə əməl etsinlər. **O zaman həm özlərinin, həm də övladlarının xoş güzəranı olar.** (Qanunun Təkrarı, 5:29)

Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır... (Zəbur, 145:18-19)

...Mamaçalar Allahdan qorxurdular... **Ondan qorxduqlarına görə bu qadınlara da ailə nəsib etdi.** (Çıxış, 1:17, 21)

Rəbb rəhmli və lütfkardır... Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür... Rəbb də Ondan qorxanlara elə rəhm edir. (Zəbur, 103:8, 11-13)

...Rəbb səndən nə istəyir? Yalnız bunu istəyir: **Ondan qorx, tamamilə Onun yolunu tut, Onu sev,** bütün qəlbinlə və bütün varlığınla Allahın Rəbbə sitayiş et. Bu gün xoş güzəranın üçün sənə buyurduğum Rəbbin əmr və qaydalarına riayət et. (Qanunun Təkrarı, 10:12-13)

Rəbbin gözü Ondan qorxanlara, Onun məhəbbətinə ümid bağlayanlara baxar. (Zəbur, 33:18)

Gəlin, ey övladlar, məni dinləyin, Rəbb qorxusunu sizə öyrədim: Kim həyatdan kam almaq istəyirsə, Uzun ömür sürüb xoş gün görmək istəyirsə, Qoy dilini şərdən, Ağzını fırıldaq üçün işlətməkdən qorusun, Qoy şərdən çəkinib yaxşılıq etsin, Sülhü axtarıb ardınca getsin! (Zəbur, 34:11-14)

Ey Rəbdən qorxanlar, Rəbbə güvənin, Odur köməyiniz və sipəriniz! Rəbb bizi unutmayıb... **Kiçikdən böyüyə qədər Ondan qorxanlara xeyir-dua verəcək.** (Zəbur, 115:11-13)

# ALLAH DÜRÜST OLANLARI SEVƏR

Süleyman dedi: “Sən qulun atam Davuda böyük xeyirxahlıq göstərdin,” çünki o Sənin önündə sadiq və saleh işlər görürdü, düz qəlblə Səninlə idi. Bu gün də taxtında oturan bir oğul verməklə ona Öz böyük xeyirxahlığını saxladın. (Padşahlar, 3:6)

Əyri ürəkli olmaq Rəbdə ikrah yaradar, **O, yolu kamil olanlardan razı qalar.** (Süleymanın Məsəlləri, 11:20)

Çünki Rəbb adildir, ədaləti sevir, Əməlisalehlər Onun üzünü görəcək. (Zəbur, 11:7)

Kamil olduğum üçün məndən möhkəm yapışdın, Məni hüzurunda əbədilik dayandırdın. (Zəbur, 41:12)

Rəbb salehliyi və ədaləti sevir, Yer üzü Onun məhəbbəti ilə dolur (Zəbur, 33:5)

**Çünki pislərin qol-qanadı qırılacaq**, Rəbb isə salehlərin dayağıdır. Rəbbə kamillərin gündəlik qayğıları məlumdur, Onların irsi əbədi qalacaq. (Zəbur, 37:17-18)

Axı Rəbb Allah günəşdir, sipərdir, Rəbb lütf və şərəf verir, **Xeyirxahlığını düz yolla gedənlərdən əsirgəmir.** (Zəbur, 84:11)

Rəbb salehi pisin əlinə düşməyə qoymaz, Ona ittiham oxunanda məhkum olmaz. Salehlərin qurtuluşu Rəbdəndir, Dar gündə onlara pənah yeridir. Rəbb onların imdadına çatır, Onları qurtarıb pislərin əlindən alır, Çünki onlar Rəbbə pənah aparır. (Zəbur, 37:33, 39-40)

**Kamalla gəzib-dolaşan dinc yaşar,** Yolu əyri olanlar üzə çıxar... Şər iş görənin başı bəla ilə doludur. (Süleymanın Məsəlləri, 10:9, 29)

**Çünki Rəbb ədaləti sevir**, Heç zaman möminlərini tərk etmir. Salehlər daim müdafiə olunacaq, Pislər nəsilliklə kəsilib atılacaq. (Zəbur, 37:28)

**Çünki azğınlar Rəbdə ikrah yaradar, Rəbb əməlisalehlərlə dost olar**. Rəbb pislərin ocağına lənət edər, **Salehlərin yurduna xeyir-dua verər**. Rəbb rişxəndçilərə istehza edər, **İtaətkarlara isə lütf göstərər**. Hikmətlilər şərəfi irs alacaq, Axmağın nəsibi şərəfsizlik olacaq. (Süleymanın Məsəlləri, 3:32-35)

Rəbb yalançı dilə ikrah edər, **Həqiqəti yerinə yetirənlərdən isə razı qalar.** (Süleymanın Məsəlləri, 12:22)

Rəbb şər insanın etdiyi qurbandan ikrah edir, **Əməlisalehlərin duasından isə razı qalır.** Rəbb şər insanın yollarından ikrah edər, **Amma salehliyin ardınca gedəni sevər.** (Süleymanın Məsəlləri, 15:8-9)

Əyri ürəkli olmaq Rəbdə ikrah yaradar, **O, yolu kamil olanlardan razı qalar**. (Süleymanın Məsəlləri, 11:20)

# ALLAH TƏVAZÖKAR OLANLARI SEVƏR

Əliaçıq bərəkət qazanar, Çünki çörəyindən kasıba paylar. Rişxəndçi adamı qovsan, münaqişə qurtarar, Çəkişmə, şərəfsizlik sona çatar. Ürək təmizliyini sevən, Dilindən lütfkar sözlər tökülən padşahın dostudur. (Süleymanın Məsəlləri, 22:9-11)

**Səxavətlə borc verən**, İşlərini ədalətlə görən yaxşı insandır (Zəbur, 112:5)

**...Məzluma səxavət göstərən nə bəxtiyardır!** (Süleymanın Məsəlləri, 14:21)

Əliaçıq adamın bərəkəti artar, Başqasının qazancını yeyən ehtiyaca düşər. **Comərd bolluğa yetişər, Su verənə su verilər.** (Süleymanın Məsəlləri, 11:24-25)

Pis adam borc alır, qaytarmır, **Salehlər səxavətlə paylayır.** (Zəbur, 37:21)

... kasıbdırsa, daşürəkli olmayın. Kasıb soydaşınıza qarşı əliniz bağlı olmasın. Əksinə, əliaçıq olun... (Qanunun Təkrarı, 15:7-8)

Tamahkar dava yaradar, **Rəbbə güvənən bolluğa çatar.** (Süleymanın Məsəlləri, 28:25)

O hər zaman səxavətlə borc verər, Övladlarına xeyir-dua gələr. (Mezmurlar, 37:26)

**Səxavətlə borc verən,** İşlərini ədalətlə görən yaxşı insandır. Belə adam əsla sarsılmaz... (Zəbur, 112:5-6)

Əliaçıq bərəkət qazanar, Çünki çörəyindən kasıba paylar (Süleymanın Məsəlləri, 22:9)

... Kasıb soydaşınıza qarşı əliniz bağlı olmasın. Əksinə, əliaçıq olun, nəyə ehtiyacı varsa, ona lazımınca borc verin. (Qanunun Təkrarı, 15:7-8)

Yoxsula əl tutan möhtac qalmır, Ona məhəl qoymayan lənət qazanır. (Süleymanın Məsəlləri, 28:27)

Bir yoxsul kişi kasıbları incidərsə, Bu, əkini yuyub aparan, qıtlıq yaradan güclü yağışa bənzər. (Süleymanın Məsəlləri, 28:3)

**Yoxsula əl tutan möhtac qalmır**, Ona məhəl qoymayan lənət qazanır. (Süleymanın Məsəlləri, 28:27)

Qulağını tutub kasıbın fəryadını eşitməyənin Fəryadına cavab verilməyəcək. (Süleymanın Məsəlləri, 21:13)

**Əliaçıq bərəkət qazanar,** Çünki çörəyindən kasıba paylar. (Süleymanın Məsəlləri, 22:9)

# ALLAH MƏRHƏMƏTLƏ DAVRANANLARI SEVƏR

**Düşmənin acdırsa, onu yedizdir, Susuzdursa, ona su ver.** Belə etməklə sanki onun başına köz tökərsən, **Bunun əvəzini Rəbdən alarsan.** (Süleymanın Məsəlləri, 25:21-22)

Kar adamı söymə və kor adamın qarşısına büdrədən heç bir şey qoyma. Allahından qorx. Rəbb Mənəm. (Levililər, 19:14)

Yaşlıların qarşısında ayağa durun, ağsaqqallara hörmət eləyin. Allahınızdan qorxun. Rəbb Mənəm. (Levililər, 19:32)

Qonşusuna xor baxan günaha batar, **Məzluma səxavət göstərən nə bəxtiyardır!** (Süleymanın Məsəlləri, 14:21)

Kasıba zülm edən Yaradanına xor baxar, Yoxsula lütf göstərən Ona hörmət edər. (Süleymanın Məsəlləri, 14:31)

Allahınız Rəbbin sizə verəcəyi torpağın hər hansı bir şəhərində yaşayan soydaşlarınızdan biri kasıbdırsa, **daşürəkli olmayın.** Kasıb soydaşınıza qarşı əliniz bağlı olmasın. (Qanunun Təkrarı, 15:7)

Yoxsulun və yetimin işinə ədalətlə baxın, Məzlumun və fəqirin haqqını verin. Yoxsul və möhtacları qurtarın, Pislərin əlindən onları azad edin. (Zəbur, 82:3-4)

Ordular Rəbbi belə deyir: “Düzgün və ədalətlə mühakimə edin. Hər kəs bir-birinə məhəbbət və mərhəmət göstərsin. Dul qadına, yetimə, qəribə və yoxsula zülm etməyin. Ürəyinizdə bir-birinizə qarşı pis niyyətlər tutmayın”. (Zəkəriyyə, 7:9-10)

Məzlumlar üçün əliaçıqdır, Fəqirlərə əl tutur (Süleymanın Məsəlləri, 31:20)

Can-dildən acların qayğısına qalsanız, Fəqirlərin ehtiyaclarını ödəsəniz, Nurunuz qaranlıqda parlayacaq, Qaranlığınız günorta işığı kimi nur saçacaq. Rəbb həmişə sizə yol göstərəcək, Quru torpaqlarda sizi doyuzduracaq, güc verəcək. Siz də sulanmış bağça kimi, Suları heç vaxtı əskilməyən Bulaq kimi olacaqsınız. (Yeşaya, 58:10-11)

Əgər yoxsulların istədiklərini bir kənara qoymuşamsa, Dul qadının ümidini qırmışamsa, Bir tikəmi özüm yeyib Yetimə verməmişəmsə, Gəncliyimdən bəri yetimlərə atalıq etməmişəmsə, Doğulandan bəri dul qadına yol göstərməmişəmsə, Paltarı olmadığı üçün canı ağrıyan, Ya örtüyə möhtac qalan yoxsulları görəndə Qoyunlarımın yunu ilə onları isitməmişəmsə, Onlar da mənə ürəkdən alqış etməyiblərsə, **Məhkəmədə sözü keçən olduğum üçün Yetimə əl qaldırmışamsa, Qollarım qırılıb çiyinlərimdən düşsün, Qoy qolum lüləsindən sınsın. Çünki Allahın bəlasından qorxuram, Əzəməti qarşısında dayana bilmərəm.** (Əyyub, 31:16-23)

Yoxsulların qayğısına qalan nə bəxtiyardır! Rəbb dar günündə onu qurtarar (Zəbur, 41:1)

Yediyiniz çörəyi acla bölüşdürmək, Yurdsuz kasıbları evinizə gətirmək deyilmi? Mənim istədiyim oruc bu deyilmi? Çılpaq görəndə geyindirmək, Yaxınlarınızdan köməyinizi əsirgəməmək deyilmi? Onda nurunuz şəfəq kimi saçacaq, Tezliklə şəfa tapacaqsınız, Qarşınızda salehliyiniz gedəcək, Rəbbin izzəti sizə arxa olacaq. (Yeşaya, 58:7-8)

**Qəribi və yetimi ədalətdən məhrum etməyin və dul qadının geyimini girov götürməyin...** Zəminizdə əkini biçən zaman bir dərz unutmusunuzsa, onu götürmək üçün geri qayıtmayın. Qoy o qəribin, yetimin və dul qadının olsun. Onda Allahınız Rəbb ələ götürdüyünüz hər işdə sizə bərəkət verəcək. Ağacları döyüb zeytun yığan zaman budaqlarda qalanı dənləmək üçün geri qayıtmayın. Qoy o, qəribin, yetimin və dul qadının olsun. Bağınızın üzümlərini yığan zaman tənəklərdə qalanı başaq etmək üçün geri qayıtmayın. Qoy o, qəribin, yetimin və dul qadının olsun. (Qanunun Təkrarı, 24:17-21)

"Qoy kor olanı yoldan azdırana lənət olsun!"... **"Qoy qəribə, yetimə, dul qadına haqsızlıq edənə lənət olsun!"** Bütün xalq desin: "Amin!" (Qanunun Təkrarı, 27:18-19)

**... Levililərə, qəriblərə, yetimlərə və dul qadınlara verin ki, şəhərlərinizdə onlar da yeyib-doysunlar.** Sonra Allahınız Rəbbə deyin: "Mənə əmr etdiyin kimi Rəbb yolunda ayırdıqlarımı evdən çıxarıb Levililərə, qəriblərə, yetimlərə və dul qadınlara verdim. Əmrlərindən çıxmadım, heç birini yaddan çıxarmadım. (Qanunun Təkrarı, 26:12-13)

Yaxşılıq etməyi öyrənin, Ədaləti axtarın, Məzlumları qurtarın, Yetimin haqqını qoruyun, Dul qadını müdafiə edin. (Yeşaya, 1:17)

**Zəiflərə qüvvət verməsaid, xəstə olanı sağaltmadınız, yaralanana sarğı qoymadınız,** azanı geri qaytarmadınız, itəni axtarmadınız. Ancaq zor və qəddarlıqla onlara ağalıq etdiniz. (Yezekel, 34:4)

Əgər yollarınızı və əməllərinizi tamamilə islah etsəniz, bir-birinizlə, həqiqətən, ədalətlə rəftar etsəniz, qəribə, yetimə və dul qadına zülm etməsəniz, bu yerdə günahsız qan tökməsəniz, özünüzə zərər vuraraq başqa allahların tərəfdarı olmasanız, o zaman burada əbədilik atalarınıza verdiyim torpaqda sizi yaşamağa qoyacağam. (Yeremya, 7:5-7)

...Yoxsullardan ədaləti əsirgəyənlərin, Xalqımın kasıblarının haqqını əlindən alanların, Dul qadınları soyanların, **Yetimlərin malını ələ keçirənlərin vay halına!** (Yeşaya, 10:1-2)

Onları əsir edənlərin Qəlbinə mərhəmət saldı. (Zəbur, 106:46)

Külli-İxtiyar Allah **o adamda sizə qarşı mərhəmət oyandırsın...** (Yaradılış, 43:14)

O soydaşına sərt ağalıq etmə. Allahından qorx. (Levelilər, 25:43)

# ALLAH DOĞRU VƏ ƏDALƏTLİ OLANLARI SEVƏR

**Çünki Mən Rəbb ədaləti sevirəm.** Soyğunçuluğa, haqsızlığa nifrət edirəm. Əlbəttə, əməllərinə görə onlara haqqını verəcəyəm, Onlarla əbədi əhd kəsəcəyəm. (Yeşaya, 61:8)

Rəbb salehliyi və ədaləti sevir, Yer üzü Onun məhəbbəti ilə dolur. (Zəbur, 33:5)

Ancaq öyünən onunla öyünsün ki, **Mən Rəbbin dünyada Məhəbbət, ədalət və salehlik yaratdığını** Dərk edir və Məni tanıyır. Çünki Mən bunlardan xoşlanıram Rəbb belə bəyan edir. (Yeremya, 9:24)

Ey insan, Allah sənə yaxşı olanı bildirdi; Ədalət yaratmaqdan, məhəbbət göstərməyi sevməkdən, İtaətkarcasına Allahınla bir yol getməkdən başqa Rəbb səndən nə istəyir ki? (Mikeya, 6:8)

Padşah kasıblara həqiqətlə hökm versə, Taxtı əbədi möhkəmlənər. (Süleymanın Məsəlləri, 29:14)

Çünki Mən onu seçdim ki, oğullarına və özündən sonrakı nəslinə saleh və ədalətli işlər görmək üçün Rəbbin yolu ilə getməyi tapşırsın...(Yaradılış, 18:19)

Nə bəxtiyardır ədalətə bağlananlar, Hər zaman əməlisaleh olanlar! (Zəbur, 106:3)

Səxavətlə borc verən, İşlərini ədalətlə görən yaxşı insandır. 6Belə adam əsla sarsılmaz, Saleh insan əbədi olaraq yadda qalacaq. (Zəbur, 112:5-6)

**O, ədalətin yollarını qoruyur, Möminlərin yollarını hifz edir**. Onda salehlik və ədaləti dərk edərsən, İnsafı, bütün yaxşı yolları tanıyarsan. (Süleymanın Məsəlləri, 2:8-9)

Rəbb Ona qurban təqdimindən çox Salehliyə, ədalətə riayət edilməsini istər. (Süleymanın Məsəlləri, 21:3)

Belə edin: hər kəs öz qonşusuna həqiqəti söyləsin, əmin-amanlıq üçün şəhər darvazalarında sədaqət və ədalətlə mühakimə edin. "Bir-birinizə qarşı ürəyinizdə pis niyyət tutmayın, yalandan and içməkdən əl çəkin, çünki bunların hamısı Mənim nifrət etdiyim şeylərdir bəyan edir" Rəbb. (Zəkəriyyə, 8:16-17)

Budur, padşah salehliklə hökm sürəcək, Başçılar ədalətlə rəhbərlik edəcək. Sonra ədalət səhrada məskunlaşacaq, Salehlik məhsuldar tarlada yaşayacaq. Salehliyin bəhrəsi əmin-amanlıq, Nəticəsi isə əbədi sakitlik və təhlükəsizlik olacaq. (Yeşaya, 32:1, 16-17)

Budur, Mənim saxladığım, seçdiyim qulum! Könlüm ondan razıdır! Mən Öz Ruhumu onun üzərinə qoymuşam. O, millətlərə ədalət gətirəcək. Çığırmayacaq, səsini qaldırmayacaq, Küçələrdə heç kim onun səsini eşitməyəcək. Əzilmiş qamışı qırmayacaq, Tüstülənən piltəni söndürməyəcək. O, ədaləti sədaqətlə yayacaq. O, yer üzündə ədaləti quranadək Ümidini, cəsarətini itirməyəcək, Uzaq diyarlar onun qanununa etibar edəcək. Göyləri yaradıb onları sərən, Yeri və onun üzərindəkiləri düzəldən, Dünyadakı adamlara nəfəs verən, Yer üzündə gəzən insanlara ruh verən Rəbb Allah belə deyir: (Yeşaya, 42:1-5)

...Onun meydanlarını axtarın. Əgər bir nəfər düz iş görən, Həqiqət axtaran adam tapsanız, Mən şəhəri bağışlayaram. (Yeremya, 5:1)

Allah ona dedi: İndi ki özün üçün uzun ömür, var-dövlət və düşmənlərinin canını istəmədin, bunların yerinə ədaləti ayırd etmək üçün dərrakə istədin... Padşah məsləhətləşib iki qızıl dana düzəltdi və xalqa dedi: Sizə daha Yerusəlimə getmək lazım deyil. Ey İsraillilər, sizi Misir torpağından çıxaran allahlarınız bunlardır (Birinci Padşahlar, 3:11-12, 28)

# İMAN GƏTİRƏNLƏR, SEVGİSİ SONSUZ OLAN ALLAHA ŞÜKR EDƏR

Rəbbə həmd edin! Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir. (Zəbur, 106:1)

Dərgahına şükürlərlə, Həyətlərinə həmdlərlə gəlin. Ona şükür edin, İsminə alqış söyləyin. Rəbb nə yaxşıdır, məhəbbəti əbədidir, Sədaqəti nəsillərdən-nəslə çatır! (Zəbur, 100:4-5)

**Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir!** Qoy belə söyləsin Rəbbin xilas etdikləri, Düşmən əlindən qurtardıqları (Zəbur, 107:1-2)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir! (Zəbur, 118:29)

Kərənay çalanlar və ilahiçilər bir səslə Rəbbə həmd və şükür etməklə səslərini birgə ucaltdılar. Kərənayların, sinclərin, musiqi alətlərinin səsi yüksələndə onlar dedi: **"Rəbbə həmd edin, çünki yaxşıdır, çünki məhəbbəti əbədidir".** O vaxt bulud Rəbbin məbədini elə doldurdu ki, (İkinci Salnamələr, 5:13)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir! Qoy İsraillilər belə desin: "Çünki məhəbbəti əbədidir!" Harun nəsli belə desin: "Çünki məhəbbəti əbədidir!" Qoy Rəbdən qorxanlar belə söyləsin: "Çünki məhəbbəti əbədidir!" ... Allahım Sənsən, Sənə şükür edəcəyəm! Allahımsan, Səni yüksəldəcəyəm! (Zəbur, 118:1-4, 28)

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, Çünki məhəbbəti əbədidir! (Zəbur, 136:1)

... Ordular Rəbbinə şükür edin, Çünki O, xeyirxahdır, Məhəbbəti əbədidir Çünki Mən ölkədən sürgün olunanları əvvəlki kimi geri qaytaracağam Rəbb belə bəyan edir. (Yeremya, 33:10-11)

# İMAN GƏTİRƏNLƏR ALLAHIN SEVGİSİ ÜÇÜN DUA EDƏR

Məhəbbətinlə Sənə sığınanlara xariqələrini göstər, Sağ əlinlə onları düşmənlərdən qurtar. (Zəbur, 17:7)

**Səni tanıyanlara məhəbbətini,** Ürəyidüz olanlara salehliyini daima göstər. (Zəbur, 36:10)

Ya Rəbb, mərhəmətini məndən əsirgəmə, Daim məni məhəbbətinlə, həqiqətinlə qoru. (Zəbur, 40:11)

Ya Rəbb, mənə məhəbbətini göstər... (Zəbur, 119:41)

Quluna verdiyin kəlama görə Məhəbbətin mənə təsəlli versin. Mənə mərhəmət et ki, yaşayım, Çünki qanunundan zövq alıram. (Zəbur, 119:76-77)

Mənsə, ya Rəbb, Sənə dua edirəm. Ey Allah, münasib gördüyün zaman Bol məhəbbətinə görə mənə cavab ver, Çünki qurtuluşuna etibar etmişəm. (Zəbur, 69:13)

Ya Rəbb, **bizə məhəbbətini göstər**, Bizi xilas et. (Zəbur, 85: 7)

**Hər səhər məhəbbətini mənə hiss etdir**, Çünki Sənə güvənirəm. Gedəcəyim yolu mənə öyrət, Çünki varlığımı Sənə verirəm. (Zəbur, 143:8)

# ALLAHIN ƏMRLƏRİ İMAN GƏTİRƏNLƏRİN QƏLBİNDƏDİR VƏ ÜZƏRİNDƏ DƏRİN DÜŞÜNƏRLƏR

Çünki Allahın qanunu ürəyindədir, Ayaqları büdrəmir. (Zəbur, 37:31)

Ey Allahım, Sənin iradəni yerinə yetirmək Mənə zövq verir, **Qanunun qəlbimdədir.** (Zəbur, 40:8)

Yatanda belə, Səni xatırlayıram, Gecə növbələrində Səni düşünürəm. (Zəbur, 63:6)

O ancaq Rəbbin Qanunundan zövq alar, **Gecə-gündüz bu təlimatı dərin düşünər.** (Zəbur, 1:2)

Ya Rəbb, Sənin əməllərini yada salıram, Bəli, xatırlayıram, ta qədimdən xariqələr göstərmisən. **Sənin bütün işlərini dərindən düşünürəm, Əməllərin barədə xəyala dalıram.** (Zəbur, 77:11-12)

Başçılar yığılıb mənim üçün qəsd qurdular, Lakin mən qulun qaydalarını dərin düşünürəm. Göstərişlərin mənə zövq verir, Onlar mənim məsləhətçilərimdir. (Zəbur, 119:23-24)

**Qanununu nə qədər sevirəm! Həmişə onun üzərində dərindən düşünürəm.** Əmrlərin məni düşmənlərimdən daha müdrik edir, Çünki onlar həmişə mənimlədir. Bütün müəllimlərimdən daha aqil olmuşam, Çünki göstərişlərin üzərində dərindən düşünürəm. (Zəbur, 119:97-99)

Dan yeri sökülməzdən əvvəl qalxıb Səni imdada çağırıram, Çünki ümidimi Sənin sözlərinə bağlayıram. **Gecə boyu gözümə yuxu getmir, Kəlamını dərindən düşünürəm.** (Zəbur, 119:147-148)

Baxaraq ona diqqət yetirdim, Bundan ibrət götürdüm (Süleymanın Məsəlləri, 24:32)

Ağzından çıxan hər hökmü Dilimlə bəyan edirəm. Göstərişlərinin ardınca gedərkən sevinirəm, Elə bil bolluca var-dövlətə çatmışam. Qayda-qanunlarını dərindən düşünürəm, Sənin yollarından gözümü çəkmirəm. Qaydalarından zövq alıram, Sözünü unutmuram. (Zəbur, 119:13-16)

# İMAN GƏTİRƏNLƏR ALLAHA OLAN SEVGİLƏRİ SƏBƏBİ İLƏ HEÇ BİR HADİSƏ QARŞISINDA SARSILMAZ VƏ ÜZÜLMƏZLƏR

Çünki padşah Rəbbə güvənir, Haqq-Taalanın məhəbbəti ilə sarsılmazdır. (Zəbur, 21:7)

**Qanununu sevənlər böyük əmin-amanlıq tapırlar, Onlar heç nə ilə büdrəməzlər.** Ya Rəbb, xilasına ümid bəsləmişəm, Əmrlərinə əməl etmişəm. Göstərişlərinə ürəkdən bağlanmışam, Onları çox sevirəm! (Zəbur, 119:165-167)

**Sənin qanunundan zövq almasaydım, Əzab çəkməkdən həlak olardım.** Qayda-qanunlarını heç vaxt unutmaram, Çünki onlarla məni həyata qaytarmısan. (Zəbur, 119:92-93)

Dinclik tapanda dedim: **"Əsla sarsılmaram"** (Zəbur, 30:6)

Kamilin pənahı Rəbbin yoludur. Şər iş görənin başı bəla ilə doludur**. Saleh heç vaxt sarsılmaz,** Şər insanlar yer üzündə qalmaz. (Süleymanın Məsəlləri, 10:29-30)

...Hüzurundakı sevinclə Sən onu fərəhləndirmisən. Çünki padşah Rəbbə güvənir, **Haqq-Taalanın məhəbbəti ilə sarsılmazdır.** (Zəbur, 21:6-7)

Vali Nehemya, kahin ilahiyyatçı Ezra və xalqı öyrədən Levililər hamıya dedilər: "Bu gün Allahınız Rəbb üçün müqəddəs gündür. Buna görə **kədərlənməyin və ağlamayın**". Çünki bütün xalq Qanunun sözlərini eşidərkən ağlayırdı. (Nehemya, 8:9)

Nehemya da onlara dedi: "Gedin, yağlı yemək yeyin, şirin içki için və hazırlıqlı olmayanlara da pay göndərin, çünki bu gün Xudavəndimiz üçün müqəddəsdir. **Kədərlənməyin, çünki Rəbbin verdiyi sevinc sizin qüvvətinizdir". Levililər "susun, kədərlənməyin,** çünki bu gün müqəddəsdir" deyə bütün xalqı sakitləşdirdilər. Bütün xalq yeyib-içməyə, paylar göndərməyə və böyük şənlik etməyə getdi. Çünki xalq ona deyilənləri başa düşdü. (Nehemya, 8:10-12)

Qəlbin sevinci üzü xoş edər, Ürəyin kədəri könlü sındırar. (Süleymanın Məsəlləri, 15:13)

**...**Mənə tərəf dönüb rahatlıq tapanda xilas olarsınız, **Sakitləşib inanmaqla qüdrətli olarsınız, Lakin siz bunu istəmirsiniz.** (Yeşaya, , 30:15)

...Kədərlənməyin, çünki Rəbbin verdiyi sevinc sizin qüvvətinizdir. (Nehemya, 8:10)

Pislik edənlərə görə narahat olma, Fitnəkarlıq edənlərə qibtə etmə Rəbbin hüzurunda sükut et, Onu səbirlə gözlə. Yolunda uğur qazanan Hiyləgər insan üçün narahat olma. Qəzəbi at, hiddətdən çəkin, Narahat olma, bunlar insanı şərə salar. (Zəbur, 37:1, 7-8)

**Pislik edənlərə görə qəzəblənmə, Şər insanlara qibtə etmə**, Çünki pis insanın axırı yoxdur, Şər adamın çırağı sönər. (Süleymanın Məsəlləri, 24:19-20)

...Saleh dara düşsə də, oradan salamat qurtarar. (Süleymanın Məsəlləri, 12:13)

# İMAN GƏTİRƏNLƏR HƏYATLARI BOYU QƏZƏBLƏRİNƏ HAKİM OLAR VƏ SEVGİ YOLUNDAN AYRILMAZ

**Qəzəblənməyə tələsmə**, Çünki qəzəb ağılsızların Ürəyində yuva salar. (Vaiz, 7:9)

**Gec qəzəblənənin böyük dərrakəsi var,** Hövsələsizlərdən səfehlik çıxar. (Süleymanın Məsəlləri, 14:29)

**Qoy səni xeyirxahlıq və sədaqət tərk etməsin, Onları boynuna bağla, ürəyinin lövhəsinə yaz.** Onda Allahın və insanların gözündə Lütf tapıb şərəfə çatarsan. (Süleymanın Məsəlləri, 3:3-4)

**Hövsələsiz səfeh-səfeh iş görər...** (Süleymanın Məsəlləri, 14:17)

Əgər hakimin qəzəbi sənə qarşı alovlansa, Yerindən tərpənmə. **Çünki sakitlik Böyük xətaların üstünü örtər.** (Vaiz, 10:4)

Gizli hədiyyə qəzəbi... hiddəti yatırar. (Süleymanın Məsəlləri, 21:14)

**Rişxəndçilər şəhəri çaxnaşdırar, Hikmətlilər isə qəzəbi yatırar.** Hikmətli səfehi məhkəməyə versə, Səfeh coşub lağ edər, dinclik gedər. (Süleymanın Məsəlləri, 29:8-9)

...Yolunda uğur qazanan Hiyləgər insan üçün narahat olma. Qəzəbi at, hiddətdən çəkin, Narahat olma, bunlar insanı şərə salar. Çünki şər adamlar kəsilib atılacaq, Rəbbə ümid bağlayanlar ölkəni mülk olaraq alacaq. (Zəbur, 37:7-9)

**Tez qəzəblənənə yoldaş olma, Kəmhövsələ ilə yola çıxma.** Yoxsa onun yollarına alışarsan, Canını tələyə salarsan. (Süleymanın Məsəlləri, 22:24-25)

**Hiddət amansızdır, qəzəbsə aşıb-daşar...** (Süleymanın Məsəlləri, 27:4)

Pislik edənlərə görə narahat olma... (Zəbur, 37:1)

# SEVGİSİZLİK ÇƏKİŞMƏ GƏTİRƏR, SEVGİ İSƏ BAĞIŞLAYANDIR

Nifrət nifaq yaradar, Lakin məhəbbət bütün günahları örtər. (Süleymanın Məsəlləri, 10:12)

**Xeyirxahlıq və sədaqət hər təqsiri kəffarə edər**, İnsan Rəbb qorxusuna görə pislikdən dönər. (Süleymanın Məsəlləri, 16:6)

İtaətsizliyi sevən münaqişəni sevər, Qapısını ucaldan əcəlini səslər. (Süleymanın Məsəlləri, 17:9)

İnsanın ağlı hiddəti ləngidər, Başqasının günahını bağışlamaq ona şərəf gətirər. (Süleymanın Məsəlləri, 19:11)

Demə: "Mənə etdiyini mən də ona edəcəyəm, Onun əməlinin əvəzini verəcəyəm". (Süleymanın Məsəlləri, 24:29)

**Xeyirxahlıq və sədaqət hər təqsiri kəffarə edər,** İnsan Rəbb qorxusuna görə pislikdən dönər. (Süleymanın Məsəlləri, 16:6)

Öz xalqından heç kəsdən qisas alma, heç kimə qarşı kin saxlama. Ancaq qonşunu özün kimi sev. Rəbb Mənəm. (Levililər, 19:18)

# SÜLHƏ ÇAĞIRANLAR SEVGİ İÇİNDƏ YAŞAYAR

Şər quranın qəlbində hiylə olar, **Nəsihət verib sülhə çağıran sevinc tapar.** (Süleymanın Məsəlləri, 12:20)

Nə yaxşıdır, nə xoşdur Qardaş olub bir yaşamaq! (Zəbur, 133:1)

Şər quranın qəlbində hiylə olar, **Nəsihət verib sülhə çağıran sevinc tapar.** (Süleymanın Məsəlləri, 12:20)

Qoy şərdən çəkinib yaxşılıq etsin, Sülhü axtarıb ardınca getsin! (Zəbur, 34:14)

Yehoşafatın padşahlığında isə əmin-amanlıq oldu, çünki Allahı ona hər tərəfdən dinclik verdi. (İkinci Salnamələr, 20:30)

Kamil adama bax, əməlisaleh insana nəzər yetir, **Gələcək sülhsevən adama bəxş ediləcək.** (Zəbur, 37:37)

İndi isə bütün dünya Sakitlik və rahatlıq içində sevincdən coşur. (Yeşaya, 14:7)

# ALLAHI SEVƏNLƏR DÜNYADA XƏLİFƏLƏR OLACAQ

Çünki şər adamlar kəsilib atılacaq, Rəbbə ümid bağlayanlar ölkəni mülk olaraq alacaq. Bir az gözlə, pis yox olacaq, Yerini axtarsan belə, tapılmayacaq. Həlimlər yer üzünü mülk olaraq alacaq, Əmin-amanlığın bolluğundan zövq tapacaq. Şər adam salehin qəsdinə durur, Ona qarşı dişlərini qıcayır. Amma Xudavənd şər adama gülür, Onun dövranının az olmasını bilir. Məzlumu, fəqiri yerə vurmaq üçün, Düz yolda olanı boğazlamaq üçün Pislər qılınc çəkər, ox-kamanını qurar. Lakin onların qılıncları öz ürəklərinə saplanacaq, Ox-kamanları parça-parça olacaq. Salehin az malı Pislərin bütün sərvətlərindən yaxşıdır. Çünki pislərin qol-qanadı qırılacaq, Rəbb isə salehlərin dayağıdır. (Zəbur, 37:9-17)

**Rəbdən bərəkət alan ölkəni mülk olaraq alacaq**, Lənət etdiyi kəslər kəsilib atılacaq. (Zəbur, 37:22)

Çünki Rəbb ədaləti sevir, Heç zaman möminlərini tərk etmir. Salehlər daim müdafiə olunacaq, Pislər nəsilliklə kəsilib atılacaq. Salehlər ölkəni mülk olaraq alacaq, Onlar orada əbədi məskən salacaq. (Zəbur, 37:28-29)

Rəbbi gözlə, Onun yolunu tut, O sənə ölkəni mülk olaraq verəcək, səni yüksəldəcək. Pislərin kəsilib atılacağı zamanı görəcəksən. (Zəbur, 37:34)

**Həlimlər yer üzünü mülk olaraq alacaq,** Əmin-amanlığın bolluğundan zövq tapacaq. (Zəbur, 37:11)

...Hiyləgər insan üçün narahat olma. Qəzəbi at, hiddətdən çəkin, Narahat olma, bunlar insanı şərə salar. Çünki şər adamlar kəsilib atılacaq, **Rəbbə ümid bağlayanlar ölkəni mülk olaraq alacaq.** (Zəbur, 37:7-9)

# CƏNAB ADNAN OKTAR DEYİR Kİ

Allah dünyanı yalnız imtahan yeri olaraq yaratdı. Allahın əhəmiyyət verdiyi mövzu sevgi və dostluqdur. Allah sevginin hakim olmasını istəyir.

Həddindən çox sevgisiz insan olması Axırzamanın tipik xüsusiyyətidir. Buna təəccüblənmək Axırzamanı anlamamaq deməkdir. Sevgisizlik ruhu 2019-a qədər davam edər. Hal-hazırda dəccalın zəhəri insanların çoxunun üzərindədir. 2019-dan sonra sevgini anlayacaqlar.

Axırzamanda insanların mənəvi xəstə olması təəccüblənəcək hal deyil. Mömin onları müalicə etməklə məsuldur, bu da sevgiylə və səbirlə olar.

Sevgisiz olmaq insanın ömrünü azaldır. Sevgisizlik vücudu qəhr edər. Hüceyrənin ən iztirab çəkdiyi şey sevgisizlikdir.

Bütün dünyada sevgi keyfiyyətsizliyi vardır. Camaatlar, qruplar bir-birinə qarşı; hətta şəhərlər şəhərlərə qarşıdır. Bu ruh, İslama uyğun deyil.

Biz sevgi üçün yaradıldıq; qəzəb, döyüş bunlar çox çirkindir. İman edənlər olaraq ruhumuzu digər ruhları xoşbəxt etmək üçün vəzifələndirməliyik.

Əvvəlcə ruhumuzla dost olub, onu öyrədəcəyik və ruhumuzu özümüzlə dost hala gətirəcəyik. Biz ruhumuzu, ruhumuz da bizi sevəcək.

İkinci olaraq da digər ruhları sevdirəcəyik özümüzə; qəzəbin və qısqanclığın bəladan başqa bir şey gətirmədiyini ruhumuza izah edəcəyik.

Qəzəb bizə yalnız zərər verər, qısqanclıq yalnız zərərə səbəb olar, bağışlayıcılıq, sevgi bizə dostlar qazandırar.

Hər insanın ruhu dost və sevən birini axtarar. Sevən necə olar? Bağışlayıcı, mərhəmətli, ağıllı, şəfqətli, təmkinli və tutarlı olar.

İnsan qarşısındakı insanı imanla sevər, əgər qarşıdakı insan Allahdan qorxmadığına dair əlamət göstərsə sevginin gücü qırılar.

Əxlaq pozulanda sevgi kəsilər və yalnız sızıntı şəklində olar, gözəl əxlaq olanda isə sevgi sel kimi axar.

# NƏTİCƏ

Tövratın bu hikmət dolu sözləri, Quran ayələriylə və İncildə sevgini tərifləyən izahlarla tam olaraq bənzərlik göstərməkdədir. Aydındır ki, Uca Rəbbimiz Allah, insanlardan Özünü, bir-birlərini və yaradılmış gözəllikləri sevmələrini istəməkdədir. Çünki bu böyük kainat, Uca Rəbbimiz tərəfindən sevgi üzərinə yaradılmışdır.

İnsanların əksəriyyətinin nifrəti qızışdırması sevgi yolu üzərində maneə deyildir. Sevgi, Allahın istədiyi gözəllikdir; həyatın məqsədidir. Bu səbəbdən Allah, sevgi tərəfdarı insanın hər zaman köməkçisidir. Belə insan, Allaha qarşı həqiqi sevgini yaşadığı və yaşatdığı müddətcə, minlərlə insanın üzərində gücdür. Ruhundakı o gözəlliyi yaşadığı üçün narahatlıq və çətinlik içində ola bilməz. Sevgi ilə ruhunu təmin edər. Bədəni, üzü, hüceyrələri o sevginin verdiyi enerji və sevinc ilə can tapar, dirilər. Nifrətin gətirdiyi qaranlıq, qorxu və dəhşət ruhundan sıyrılıb gedər. Bu insan üçün yaşadıqlarını xeyirə yozmaq, dinc bir beyin ilə rahat və xoşbəxt yaşamaq və hadisələrə həll yolu tapmaq daim mümkündür.

Nifrət insanlarının tələsinə düşməmək lazımdır; həmçinin sevgini yaşamaq çətin deyil. Ruh və bədən, sevgiyə nizamlı yaradılmışdır. Davamlı Allahın lehində düşünmək, inkişaf edən hadisələrin hikmətli imtahan olduğunu fərq edə bilmək, Allahın sevgisinə və qorumasına güvənmək, bütün yolları açacaqdır. O zaman insan, əsl çətin olanın nifrət olduğunu, ruh və bədənin yadırğadığı ruh halında yaşamanın əziyyət olduğunu daha yaxşı anlaya biləcəkdir. Bu da unudulmamalıdır ki, sevgini yaşayan və yaşadan insana Allah, dünyanı da, axirəti də gözəlləşdirər. Çünki sevgi tələb edərək o, bu duanı etmişdir. Allah, dualara qarşılıq verəndir.

Sevgini öz ruhumuzda hakim etmək əsas şərtdir; amma kafi deyil. İnsanları da gözəlliyə çəkə bilmək, əhəmiyyətli ibadətdir. Nifrətin meydana gətirdiyi keyfiyyətsizliyi, terroru, dağıtması, zülmü, döyüşü dayandırmaq üçün isə insanları "öyrətmək" lazımdır. Yanlış inanclar ortadan qaldırılar və yerinə doğrular gətirilsə, səhv inancların doğurduğu fəlakətlər də ortadan qalxacaqdır. İnsanlara bu dünyada başıboş olmadıqları, təsadüfən var olmadıqları, bir məqsəd uğrunda yaradıldıqları izah edilməlidir.

İnsanlar, öz həyatlarından, gördüklərindən, düşündüklərindən və hərəkətlərindən məsul olduqlarını bilməli və "insan həyatının bir böcək qədər dəyərsiz olduğu" fikrindən qurtulmalıdırlar. Sonlu deyil sonsuz varlıq olduqlarını, həyatlarının bu dünya həyatı ilə son tapmayacağını, yox olub getməyəcəklərini bilməlidirlər. Döyüşərək, əzərək, dava edərək deyil; sevərək, şəfqət göstərərək, fədakarlıq edərək gözəlləşəcəklərini öyrənməlidirlər. Döyüşməyi məqbul göstərən hər ideologiya böyük yalandır. İnsanlar, ancaq və ancaq öz yaradılışlarına yəni sevgiyə uyğun davrandıqlarında xoşbəxt yaşayarlar. İrəliləmək, gözəlləşmək və xoşbəxt olmaq istəyirlərsə yalnız sevgini ayaqda tutmalı və Allahın Quranda, Tövratda və İncildə təriflədiyi bu gözəl əxlaqı yaşamalıdırlar.

Uca Rəbbimiz bir Quran ayəsində belə buyurur:

**İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli Allah qəlblərdə bir sevgi yaradacaq. (Məryəm surəsi, 96)**

**ADNAN OKTAR**: İncildə Allahın gözəl hökmləri vardır və Quranda İncildən "nur və hidayət qaynağı" olaraq bəhs edilir. Tövrat üçün də eyni şey etibarlıdır. (Peterin birinci məktubu, Bap 2, 15-17: Allahın qulları kimi yaxşılıq işləyərək, ağılsız adamların cəhalətini Susturun. Bütün insanlara hörmət edin. Qardaşlığı sevin. Allahdan qorxun ...) *(21 mart 2017, A9 TV )*

Quranda Tövrat və İncilə istinad vardır amma bəzi müsəlmanlar bunu anlamaq istəmirlər, halbuki İncil və Tövrat oxusalar üfüqləri geniş olar. *(29 dekabr 2016, A9 TV)*

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş verмədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana

gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott*

*Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək

beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm$^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan

bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın

hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# ŞƏKİL ALTINDAKI YAZILAR

s.101

Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün son dərəcə böyük dilemmadır.

s.103

Təkamül nəzəriyyəsini əsassız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində iştirak edən DNT molekulu, bunun bir nümunəsidir. DNT, dörd ayrı molekulun fərqli düzülməsindən ibarət bir növ məlumat bankıdır. Bu məlumat bankında canlıyla əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alır. İnsan DNT-si kağıza yazılanda, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanır. Əlbəttə belə fövqəladə məlumat, təsadüf anlayışını qəti şəkildə əsassız edir.

s.107

Təkamülçülər əsrin başından bəri ağcaqanadları mutasiyaya uğradaraq, faydalı mutasiya nümunəsi meydana gətirməyə çalışdılar. Ancaq on illərlə sürən bu səylərin nəticəsində əldə edilən tək nəticə, şikəst, xəstə və qüsurlu ağcaqanadlar oldu. Ən solda, normal meyvə ağcaqanadının başı və sağda mutasiyaya uğramış digər meyvə ağcaqanadı.

antena

gözlər

ağız

ayaq

s.110

Təbaşir dövrünə aid bu timsah fosili 65 milyon illikdir. İndiki vaxtda yaşayan timsahlardan heç bir fərqi yoxdur.

İtaliyada çıxarılmış bu mənə balığı fosili 54 - 37 milyon illikdir.

Bu 50 milyon illik çinar yarpağı fosili ABŞ-da çıxarılmışdır. 50 milyon ildir çinar yarpaqları heç dəyişməmiş, təkamül keçirməyibdir.

s.114

SAXTA

İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı yoxdur. Əksinə, fosil qeydləri insanlar ilə meymunlar arasında keçilməz sərhəd olduğunu göstərməkdədir. Bu həqiqət qarşısında təkamülçülər, həqiqətdən kənar bəzi şəkil və maketlərə ümid bağlamışlar. Fosil qalıqları üzərinə istədikləri maskaları keçirər və xəyali yarı meymun, yarı insan üzlər meydana gətirərlər.

s.123

Təkamülçülərin istədikləri bütün şərtlər sağlansa bir canlı meydana gələ bilərmi? Əlbəttə ki, yox. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Üstdəkinə bənzər vedrəyə canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki metoddan istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilsə edilsin, nə qədər gözləsəkdə bu vedrədən canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

s.125

Beyin işığa da səsə də bağlıdır. Buna baxmayaraq ən dəqiq səslər beynimizdə duyar və ən mükəmməl təsvirləri beynimizdə görərik. Gözün və qulağın təmin etdiyi qüsursuz qəbul etmə sistemi heç bir texnologiya ilə mümkün olmamışdır. Göz və qulaq, Allahın uca rəhmətinin, üstün yaratma gücünün təcəllilərindəndir.

s.127

Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə girə bilməz. Təsvir mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç

qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz dünyanı seyr edirsiniz.

**Oxuyacağınız bu kitabda Tövratın dəyişmədən qalmış hissələrində yer alan, Quran ilə eyni olan müxtəlif Tövrat fəsillərindən faydalanma imkanı tapacaqsınız. Bilindiyi kimi Tövratın bəzi hissələri, heç dəyişmədən günümüzə qədər gəlmişdir və Allahın sözü olması səbəbiylə Quran ilə olduqca oxşar hissələr ehtiva etməkdədir. Bu səbəbdən oxuyacağınız bu hissələr, ehtiva etdiyi hikmət və zənginlikdən də aydın olacağı kimi, Uca Rəbbimizin sözüdür.**

**Vicdanını istifadə edən yaxşı insanlar, bu sözlərin göstərdiyi mənanı düşünməli və sevgini yaşamaq və həmişə ayaqda tuta bilmək üçün yaxşılarla daima ittifaq içində olmalıdırlar. Dəccalın oyununu pozmalı, dəccal nifrəti körüklədikcə, sevginin tərəfdarı olaraq ön plana çıxmalıdırlar. Allahı sevmənin gözəlliyini qavramalı və səhv inanc sistemlərini elmi olaraq yox edərək, Allah aşiqi birliklər meydana gətirməlidirlər. Unudulmamalıdır ki, həqiqi Allah sevgisini yaşayan az sayda insan belə, dünyanı dəyişdirməyə kifayətdir. Şübhəsiz bütün güc, Uca Allaha aiddir.**

MÜƏLLİF HAQQINDA: Harun Yəhya təxəllüsünü istifadə edən Adnan Oktar, 1956-ci ildə Ankarada anadan olub. 1980-ci illərdən bu yana, imanı, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunların yanında, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Yazarın bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqlərini gözlər önünə gətirməkdir. Necə ki, yazarın bu günə qədər 76 ayrı dilə tərcümə edilən 300-ü aşan əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən təqib edilməkdədir.

Harun Yəhya külliyyatı, Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.